www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 yanvar 2019-cu il Çərşənbə № 11 (7181) Qiymət 60 qəpik

**Xəbər**

## Ölkədə uşağın cinsiyyətini qabaqcadan öyrənmək qadağan edilir

yazısı səh.12-də

**Gündəm**

### AzTV sədri işdən çıxarıldı - Alışanovu bitirən səbəblər



Bir müddət əvvəl Arif Alışanovla bağlı məhkəmədə xeyli ilginc faktlar ortaya çıxmışdı; televiziyada hərc-mərclik və işçilər arasında ayrı-seçkilik hökm sürürdü

yazısı səh.3-də

### İnqilabi struktur islahatları - büdcəyə qənaət və çevik idarəetmə

yazısı səh.7-də

### Həcc qiymətləri bahalaşdı

yazısı səh.12-də

### "Güzəştli mənzil" sistemi "ASAN xidmət"ə verildi

yazısı səh.3-də

### AŞ PA-nın qış sessiyası Azərbaycanla bağlı müzakirə ilə başlayacaq

yazısı səh.6-də

### Ali məktəblər birləşdirilə bilər - təkliflər

yazısı səh.12-də

### Mərhum nazirin oğlunun restoranında işıq qalmaqalı

yazısı səh.10-da

### Bakıya qar proqnozu verildi

yazısı səh.13-də

### "Hell" enerji içkisinin qiyməti niyə ucuzlaşdı?

yazısı səh.10-da

### Metroda təzə qiymət, köhnə vəziyyət...

yazısı səh.14-də

### Dənizdə güclü küləklə bağlı 1700-dən çox neftçi təxliyə edilir

yazısı səh.2-də

### Milli Şuranın mitinqinə icazə verildi

yazısı səh.2-də

# RÜFƏT ASLANLI ÜÇÜN "QƏFƏS" HAZIRLIĞI - İSTİNTAQ GEDİR, İFADƏSİ ALINIR

Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının keçmiş sədrinin ölkədən çıxışına niyə yasaq qoyulmasının səbəbi bilindi; sabiq məmur haqda istintaq başladığı rəsmən təsdiqləndi; o, tezliklə müstəntiqlərin suallarına cavab verməli olacaq...




yazısı səh.5-də

# Ermənilər tamaşa yox, çörək istəyir - Bakının şərti qəbul olunsa...

8 ayda 2 dəfə baş nazir təyin edilən inqilab liderinin həll etməli olduğu əsas məsələ; ölkədə yeni narazılar kütləsi yetişir; erməni nəşrindən SOS!: "9 dekabrdan sonra zaman Paşinyan və kabinetinin əleyhinə işləyir..."

yazısı səh.9-da



Kamran Əliyev

### Korrupsiyaya qarşı Mübarizə İdarəsinin antikorrupsiya hesabatı

yazısı səh.5-də



### Paşinyana Qarabağı boşaltmağa qarabağlılar imkan vermir - iddia

yazısı səh.4-də



İbadulla Ağayev

*Baş epidemioloq:*

### "Gürcüstandakı donuz qripi Azərbaycana sirayət edə bilməz"

yazısı səh.3-də

Azərbaycan Respublikası
Kənd Təsərrufatı Nazirliyi

## Aqrar Xidmətlər Agentliyinin fəaliyyəti necə olacaq?

**Prezident İlham Əliyevin imzaladığı fərmanla yaradılmış Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin fəaliyyət istiqamətləri açıqlanıb. Bu barədə "Report"a nazirlikdən bildirilib.**

Xatırladaq ki, yeni qurum nazirliyin tabeliyində olmuş Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında yaradılıb. Beləliklə, baytarlıq və fitosanitar xidmətlərin təşkil olunması, idarə edilməsi və keyfiyyətinə nəzarət, kənd təsərrüfatı texnikasının qeydiyyatı, texnikaya nəzarət fəaliyyəti və bu sahədə dövlət xidmətləri, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort sınaq məntəqələri, toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkili və göstərilməsinə nəzarəti həyata keçirmək kimi funksiyalar Aqrar Xidmətlər Agentliyinə verilib.

"Agentliyin yaradılması optimallaşmanı, çevik və səmərəli idarəetməni təmin edəcək. Həyata keçirilən islahatlar aqrar sektorda innovativ həllərin tətbiqinə imkan verəcək, elektron xidmətlərə keçidi sürətləndirəcək və şəffaflığı daha da artıracaq. İslahatlar nəticəsində aqrar xidmətlərdə vahid standartlar tətbiq olunacaq. Bu addımlar dövlət xidmətlərini fermerlər üçün daha əlçatan edəcək. Xidmətin keyfiyyətinə daim nəzarət olunacaq. Bu xidmətlər Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) vasitəsilə göstəriləcək, Agentlik bu sahədə DAİM-lərin fəaliyyətini əlaqələndirəcək. Hazırda DAİM-lərdə fermerlərə müxtəlif fəaliyyət növləri üzrə 70-dək xidmət göstərilir. Aparılan struktur dəyişiklikləri ilə əlaqədar bu xidmətlərin sayı daha da artacaq. Fərman aqrar sahədə mövcud çağırışlara cavab verir və vətəndaş məmnunluğunu artırmağa hədəflənib", - deyə məlumatda qeyd olunub.



Cavad Cahangirzadə

## Azərbaycan, İran və Türkiyə birgə seriallar çəkəcək

**İran, Azərbaycan və Türkiyə birgə seriallar çəkəcək. Bunu "Trend"ə müsahibəsində İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib. Səfir qeyd edib ki, İran və Azərbaycan arasında birgə film çəkilişi də nəzərdə tutulur:**

"Eyni zamanda İran, Azərbaycan və Türkiyə arasında tanınmış aktyorların iştirakı ilə birgə seriallar çəkiləcək. Azərbaycan tərəfi bu məsələ ilə bağlı razılığını verib və müvafiq işlər aparılır".

İki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıqdan danışan diplomat bildirib ki, 2018-ci ilin iyun ayında İranın mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehi Azərbaycana səfər edib: "Həm Bakıda, həm də Gəncədə İran mədəniyyəti günləri keçirilib. İranın aparıcı kinorejissorlarından biri Məcid Məcidi Azərbaycana gəlib, Azərbaycanın kino sahəsinin mütəxəssisləri ilə görüşləri olub. Bundan başqa, Fərabi Kino Fondunun icraçı direktoru Əlirza Tabeş də Azərbaycana səfər edib, görüşlər keçirib, kino sahəsində müqavilələr imzalanıb. Həmçinin İranın teatr, xalça, musiqi, rəssamlıq və xəttatlıq sahələrində fəaliyyət göstərən tanınmış şəxsləri Azərbaycana gəliblər".

# Milli Şuranın mitinqinə icazə verildi - Qarabağ Komitəsindən reaksiya



**Milli Şuranın yanvarın 19-da "Məhsul" stadionunda Mehman Hüseynov və digər siyasi məhbusların azad edilməsi tələbi ilə keçirəcəyi mitinqə Bakı Şəhər İcra Hakimiyyəti müsbət cavab verib.**

Qeyd edək ki, son aylarda "Məhsul" stadionu mitinq keçirmək istəyən qüvvələrin üzünə qapadılmışdı. Qarabağ Komitəsinin (QK) "Qarabağa azadlıq" şüarı ilə noyabrın 24-nə və dekabrın 15-nə təyin etdiyi iki mitinqə icazə verilməmişdi. Son olaraq, yanvarın 12-də Müsavat Partiyasının aksiyasına icazə verilməyib.

Bütün bunların fonunda Milli Şuranın mitinqinə icazə verilməsi ciddi suallar yaradır.

Qarabağ Komitəsinin təsisçilərindən olan QAT sədri Akif Nağı bu qərara təəccüblənmir: "Bu qərar məndə təəccüb doğurmur. Çünki son bir neçə ildə belə bir ənənə yaranıb ki, Milli Şuranın əksər müraciətlərinə müsbət cavab verilib. Amma digər qurumların müraciətlərinə mənfi cavab verilib. Bu mənada təəccüb doğurmur ki, bu qərar həmin xəttin davamıdır. Amma digər tərəfdən, bütövlükdə sual yaranır ki, bu necə ola bilər. Nə üçün belə bir fərqlənmə ortadadır? Bunun səbəbləri nədir? Hakimiyyətin bu və ya digər qurumlara münasibəti iləmi bağlıdır? Beynəlxalq təşkilatların bu məsələdə rolu varmı? Suallar, şübhələr həddindən artıq çoxdur, cavabı da yoxdur. Hər halda, hesab edirəm ki, bu, yaxşı hal deyil. Burada ayrı-seçkilik qoyulursa, düşünürəm ki, bu, icazə verilən təşkilatın özünə daha çox ziyandır. Cəmiyyətdə həmin qurum haqqında mənfi fikir yaranır ki, bu, sifarişlə, razılıqla əldə olunmuş bir qərardır".

**Qarabağ Komitəsinin digər təmsilçisi, "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı qərarı alqışlayır:** "Bu, normal bir hadisədir. Necə ki, bizim 29 sentyabr mitinqinə icazə verilmişdi, indi onlara bu cavab verilib. Açığı, bu qərarı dəstəkləyirəm. Qoyun mitinq olsun, biz də iştirak edək. Vətəndaş kimi mütləq iştirak edəcəm. Nə qədər kütləvilik olsa, bir o qədər yaxşıdır. Damğa vurmalar, ittihamlar mütləq olacaq. Bizim də mitinqə icazə veriləndə eyni damğaları vurdular, ittiham səsləndirdilər. İndi baxın, nə gözəldir, hakimiyyət onların da mitinqinə icazə verir. Kaş ki, hakimiyyət bütün mitinq keçirmək istəyən qüvvələrə icazə versin. Düşünürəm ki, hakimiyyət bu məsələdə ayrı-seçkilik etməklə çalışır ki, müxalifətdaxili narazılıqlar dərinləşsin. Mən də bundan yana deyiləm".

**Müsavat Partiyasının məsələ ilə bağlı mövqeyini öyrənmək mümkün olmadı.**

❑ **Cavanşir ABBASLI,**
**Musavat.com**



## Zamirə Hacıyevanın 1 milyonluq üzüyü müsadirə olundu

**Britaniyanın aidiyyəti qurumları həbsdə olan "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın bir milyon funt sterlinqdən bahalı (təxminən 2,2 milyon manat - red.) brilyant üzüyünü müsadirə edib.**

Oxu.az xəbər verir ki, bu haqda «Telegraph» məlumat yayıb.

Məlumata əsasən, Cahangir Hacıyev 8,9 karatlıq brilyant üzüyü səkkiz il əvvəl "Harrods" mağazasından alıb.

Britaniyanın Milli Cinayətlərlə Mübarizə Agentliyi bankirin həmin qiymətli zinət əşyasını hansı vəsait hesabına əldə etdiyini araşdırmaq niyyətindədir.

Xatırladaq ki, C.Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib.



## Borca görə axtarışda olan 14 nəfər saxlanıldı

**Yanvarın 14-dən 15-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 137 cinayət faktı qeydə alınıb, onların da 27-si "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 10 cinayətin açılması təmin olunub.**

Axtarışda olduğuna görə ümumilikdə 21 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 14 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər ölüb, 9 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 15, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 30 nəfər saxlanılıb.

## Dənizdə güclü küləklə bağlı 1700-dən çox neftçi təxliyə edilir

**Yanvarın 17-də hava şəraitinin kəskin pisləşməsi ilə əlaqədar SOCAR üzrə təhlükəsizlik tədbirləri maksimum dərəcədə gücləndirilib, istehsalatda qəzaların baş verməməsi üçün növbədə qalması zəruri olan işçilərdən başqa bütün əməkdaşlar təxliyə edilir.**

SOCAR-dan verilən məlumata görə, hava və dəniz nəqliyyatları vasitəsilə ümumilikdə 1700-dən çox neftçinin sahilə çıxarılması üçün aparılan tədbirlər artıq sona çatdırılır.

Hava şəraitinin kəskin pisləşməsi ilə bağlı bütün sahələrdə maarifləndirmə işləri aparılıb, açıq hava şəraitində işlər maksimum dərəcədə dayandırılıb, tikililərin və qurğuların təhlükəsiz vəziyyətə gətirilməsi haqqında göstərişlər verilib, zəruri sahələrdə növbətçilik təşkil olunub.

Mümkün fövqəladə vəziyyətlə əlaqədar digər təşkilat və qurumlarla mütəmadi əlaqələr saxlanılır, mövcud vəziyyət daimi nəzarət altındadır. Dənizdəki bütün neft-qaz yataqlarında növbətçi gəmilər və FHN-in yanğından mühafizə gəmiləri tərəfindən növbətçilik həyata keçirilir.

## Ermənistan parlamentinin vitse-spikerləri seçildi

**Ermənistan parlamentində vitse-spikerlərlə bağlı səsvermənin nəticələri məlum olub.**

Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu vəzifəyə Alen Simoinyan, Lena Nazaryan ("Mənim addımım" bloku) və Vaqe Enfiacyan ("Çiçəklənən Ermənistan" partiyası) seçilib.

"İşıqlı Ermənistan" partiyasının namizədi Mane Tandilyan isə yalnız 19 nəfərin dəstəyini alıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

Yeni Müsavat
N 11 (7181) 16 yanvar 2019

# AzTV sədri işdən çıxarıldı - Arif Alışanovu bitirən səbəblər

## Bir müddət əvvəl Arif Alışanovla bağlı məhkəmədə xeyli ilginc faktlar ortaya çıxmışdı, televiziyada hərc-mərclik, işçilər arasında ayrı-seçkilikdən şikayətlər vardı

**"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanov vəzifəsindən azad olunub.**

Ölkə başçısı bununla bağlı sərəncam imzalayıb. Sərəncamda deyilir: "Arif Nizam oğlu Alışanov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin".

Qeyd edək ki, Arif Alışanov 1977-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işə başlayıb. Ordu sıralarında hərbi xidmət keçdikdən sonra yenidən AzTV-də əmək fəaliyyətini davam etdirib.

1981-ci ildən şöbə müdiri, idarə rəisi, baş idarə rəisi, 1997-ci ildən Texniki-İstehsalat Birliyinin direktoru vəzifələrində çalışıb. 17 may 2001-ci ildən həmin birliyin direktoru vəzifəsi saxlanılmaqla Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti sədrinin texnika üzrə müavini işləyib.

28 mart 2005-ci ildə dövlət başçısının sərəncamı ilə "Azərbaycan Teleradio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini, 16 avqust 2006-cı ildə isə sədr vəzifələrinə təyin olunub.


Arif Alışanov


Rövşən Məmmədov

Arif Alışanov 2010-cu ilin noyabrında keçirilən parlament seçkilərində 45 saylı Abşeron seçki dairəsindən Milli Məclisə deputat seçilib. 2010-cu ildə deputat səlahiyyətləri başa çatıb.

Modern.az-ın məlumatına görə, AzTV sədri vəzifəsinin icrası tanınmış jurnalist Rövşən Məmmədliyə tapşırılıb. Rövşən Məmmədov AzTV-yə 2015-ci ildə gəlib. Bu təyinatadək AzTV-də "Günün nəbzi" verilişinin aparıcısı idi. O, daha əvvəllər "Lider" TV-də çalışıb. R.Məmmədov hazırda AzTV-də çalışmaqla yanaşı, Bakı Avrasiya Universitetində də dərs deyir.

AzTV sədri və onun yaxın adamlarının idarəçiliyi haqda çoxsaylı şikayətlər vardı. İşçilərə az maaş verilməsi, hərc-mərclik, işçilər arasında ayrı-seçkilik haqda çoxlu iddialar vardı.

Qeyd edək ki, ötən il Bakı Ağır Cinayətlər Məhkəməsində Arif Alışanovu öldürməyə cəhddə, ona qarşı dələduzluq etməkdə və digər cinayətlərdə təqsirləndirilən Şücayət Əkbərov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovun məhkəmə prosesi olub. Hakim Əfqan Hacıyevin sədrliyi keçirilən prosesdə Arif Alışanovla bağlı xeyli ilginc faktlar ortaya çıxmışdı. Məsələn, məlum olmuşdu ki, ölkənin büdcədən maliyyələşən əsas telekanalının rəhbəri Şamaxı rayonunda təxminən 6 milyon manatlıq torpaq alveri edibmiş. Bundan başqa, onun Quba, Xızı, Zərdab, Sabirabad, Xanlar rayonları ərazisində də torpaq sahələri var imiş. O da məlum olmuşdu ki, sabiq AzTV sədri yaşayış binaları tikib mənzil satışı ilə də məşğul olurmuş. Tərəflərin vəkillərinin vəsatətlərinə baxmayaraq, A.Alışanovun məhkəməyə gəlmədi. Prosesdə yalnız onun ifadəsi elan edildi. O bildirib ki, 2012-ci ildə qardaşı, yeznəsi və qayınları ilə birgə Şamaxıda vətəndaşların pay torpağını pulla alınmasını Ş.Əkbərovdan xahiş edib. AzTV sədrinin sözlərinə görə, Ş.Əkbərov və digərləri 2016-cı ildə Şamaxı rayonu ərazisində onu, bacısı oğlu Dəyanət Cəfərov və sürücüsü Hacı Babayevi öldürməyə cəhd edib. A.Alışanov deyib ki, Ş.Əkbərov onun və qohumlarının, ümumilikdə, 4 milyon 677 min manat pulunu mənimsəyib.

Sui-qəsddə təqsirləndirilən Ş. Əkbərov isə son sözündə günahsız olduğunu və məhkəmədən barəsində ədalətli qərar çıxarmasını istəmişdi. Hökmə əsasən, Ş. Əkbərov 18 il, Z. Şirinov 16 il, Q. Cəbiyev 17 il müddətinə azadlıqdan məhrum edilib.

❑ ORXAN
"Yeni Müsavat"

# "Güzəştli mənzil" sistemi "ASAN xidmət"ə verildi

**Azərbaycan prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

"Report"un məlumatına görə, fərmana əsasən 6-cı bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilib. Başqa sözlə, "Güzəştli mənzil" sisteminin təşkilində və fəaliyyətinin təmin olunmasında Mənzil İnşaatı Dövlət Agentliyi və "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinə köməklik göstərilməsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Bununla da Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin səlahiyyətlərindən biri ləğv olunub.

Sənədə əlavə edilən 8.3 bəndə görə, bu fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş qaydaya uyğun olaraq edilən müraciətlərin cavablandırılması, o cümlədən yaranan çətinliklərlə bağlı müraciətlər və onların aradan qaldırılması "ASAN xidmət" mərkəzləri vasitəsilə də həyata keçiriləcək.


Hüseyn Baqeri

# İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Bakıya gəlir

**İran ordusu Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeri Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə yüksək rütbəli hərbçilərdən ibarət heyətlə yanvarın 16-da Bakıya gələcək. Bu barədə musavat.com -a İranın Azərbaycandakı səfirliyi məlumat verib.**

Xəbərdə qeyd olunur ki, İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycan Respublikasının prezidenti, baş nazir və parlament sədri ilə görüşüb, müzakirələr aparacaq. İki günlük səfər çərçivəsində müdafiə sahəsində Bakı - Tehran arasında mövcud olan əlaqələr və əməkdaşlıq, sərhəd əməkdaşlığı, terrorizmlə mübarizə və regional hadisələr haqqında fikir mübadiləsi aparılacaq. Həmçinin bu səfərin sonunda iki ölkə arasında hərbi - müdafiə sahəsində anlaşma memorandumunun imzalanması gözlənilir.

Qeyd edək ki, bu səfər İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqerinin Azərbaycana ilk səfəridir. Ötən ilin oktyabrında Baqerinin Bakıya səfəri barədə məlumat yayılsa da, sonradan səfər təxirə salınıb. General Baqeri Azərbaycan əsillidir, Təbriz yaxınlığında dünyaya gəlib.

❑ Kənan RÖVŞƏNOĞLU,
Musavat.com

# "Gürcüstandakı donuz qripi Azərbaycana sirayət edə bilməz" - baş epidemioloq əmin danışdı, amma...

## Donuz qripi Gürcüstanda qış turizmini çökdürmək üçün qəsdən yayılıb?

**"Azərbaycanda donuz qripinin virusları aşkar edilməyib". Bu barədə "Yeni Müsavat"ın facebook üzərindən canlı yayımlanan verilişinə qonaq olan Azərbaycan Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev bildirib. Onun sözlərinə görə, Gürcüstan və Ermənistanda bu virusdan dünyasını dəyişənlərin sayı artsa da, bu, Azərbaycana sirayət etməyib.**



Azərbaycan Səhiyyə Nazirliyinin məlumatında deyilir ki, sərhədyanı ölkələrdə gərgin epidemioloji vəziyyətin davam etməsi Azərbaycan üçün real təhlükə kəsb etdiyindən profilaktik, müalicəvi və əks-epidemik tədbirlərin həyata keçirilməsini tələb edir.

Müsahibimiz eyni zamanda qonşu ölkələrdə epidemiyanın yayılmasının Azərbaycana da təsirsiz ötüşməyəcəyi ilə bağlı fikirləri təkzib edib. Onun sözlərinə görə, tibdə belə bir qayda yoxdur. O, eyni zamanda əhaliyə maariflənməyi, diqqətli olmağı və müntəzəm olaraq dezinfeksiya tədbirləri görməyi məsləhət edib: "Xəstəlikdən sığortalanmağın yolları xəstələnən şəxsin dərhal bülleten açdırıb evdə oturması, sağalana qədər kollektiv arasına çıxmamasıdır. Bundan başqa, müayinə olunmadan aptek işçilərinin məsləhəti ilə dərman almaq da çıxış yolu deyil. Mütləq həkim müayinəsi və resepti olmalıdır. Tibb müəssisələrinə ağır kəskin respirator xəstəlik halları barədə müraciət olduğu halda, dərhal yerli gigiyena və epidemiologiya mərkəzlərinə məlumat verilir, şübhəli xəstələrdən götürülmüş nümunələr Respublika Taun Əleyhinə Stansiyasına çatdırılır, respublikanın şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzləri əhalinin kütləvi məskunlaşdığı yerlərdə sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə dair nəzarəti gücləndirib".

Bu arada Gürcüstanda donuz qripinə yoluxanların sayı azalır. Gürcüstan Səhiyyə Nazirliyinin Sağlamlığın Müdafiəsi Departamentinin rəhbəri Marina Daraxvelidze bu haqda məlumat verib. Onun sözlərinə görə, son ölüm halı yanvarın 14-də baş verib - 10 aylıq körpə vəfat edib. Bununla da qripdən dünyasını dəyişənlərin sayı 18-ə çatıb. Həmçinin təcili tibbi yardım xidmətinə müraciət edənlərin sayında azalma var.

Son məlumata görə, Gürcüstanda hər 100 min nəfərdən 256 nəfəri qrip virusuna yoluxub. Ölkədə 9 min nəfər virusa yoluxub, onlardan 42 nəfərinin vəziyyəti ağırdır.

**"Azərbaycanın bütün gömrük-keçid məntəqələrində donuz qripi əleyhinə xüsusi avadanlıq quraşdırılıb". Report xəbər verir ki, bunu Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev deyib. Onun sözlərinə görə, komitə bu məsələdə Səhiyyə Nazirliyi və digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq edir:** "Əhalinin təhlükəsizliyi, sağlamlığı ilə bağlı bütün parametrlər nəzərə alınıb. Hesab edirəm ki, bu sahədə biz kifayət qədər nəticələr əldə etmişik. Bu gün də gücləndirilmiş iş rejimində çalışırıq. Əhalinin həm məlumatlandırılması, eyni zamanda xəstəliyin Azərbaycana gəlməməsi üçün xüsusi dezinfeksiyaedici, karantin sahələr elan olunub. Hər bir şey nəzarətimizdədir".

Gürcüstanda donuz qripinin yayılmasının təxribat məqsədli olması da yayılan versiyalalar sırasındadır. Xüsusən son illər Gürcüstanda qış turizminin (Bakuriani, Qudauri) geniş inkişafı bu hücumun gerçəkləşməsində əsaslı rol oynamış ola bilər. Bunun Rusiya tərəfindən həyata keçirilməsi də komplo-nəzəriyyələr arasında yer alır. Amma İ.Ağayev əməkdaşımıza açıqlamasında bu versiyanı inkar etdi və dedi ki, müasir dünyada bu mübarizə silahından istifadə halları yoxdur.

❑ Sevinc TELMANQIZI,
"Yeni Müsavat"

# ATƏT cəbhə xəttində monitorinq keçirdi

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 15-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.**

Müdafiə Nazirliyinin saytı bildirir ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller aparıblar.



# Nəcməddin Sadıkov Brüsselə gedib

**Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Hərbi Komitəsinin Qətiyyətli Dəstək missiyası formatında keçiriləcək görüşdə iştirak etmək üçün Brüssel şəhərinə (Belçika Krallığı) yola düşüb.**

Strateq.az Müdafiə Nazirliyinə istinadən bildirir ki, tədbir yanvarın 15-16-da NATO-nun Mənzil-Qərargahında baş qərargah rəisləri səviyyəsində keçiriləcək.

# Putinlə Ərdoğanın görüşünün tarixi açıqlandı

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin yanvarın 23-də görüşəcək.**

TASS xəbər verir ki, bu barədə jurnalistlərə Türkiyənin dövlət başçısı bildirib.

"Böyük ehtimalla, Putinlə çərşənbə günü - yanvar 23-də görüşəcəyik", - o deyib.



# Trampın NATO-dan çıxmaq planı hazırladığı üzə çıxdı

**ABŞ prezidenti Donald Tramp NATO-dan çıxmaq haqqında düşünürmüş. Virtualaz.org "The New York Times"a istinadən xəbər verir ki, nəşrin yazdığına görə, bu qərar Şimali Atlantika alyansının dağılması demək idi.**

Prezident administrasiyasındakı mənbələr bildiriblər ki, 2018-ci il ərzində dövlət başçısı özəl söhbətlər zamanı bir neçə dəfə təşkilatdan çıxmaq arzusunu dilə gətirib. Qəzetin həmsöhbətlərinin sözlərinə görə, onlar qorxurlar ki, hərbi büdcə üzündən avropalı müttəfiqləri ilə fikir ayrılıqları Trampı bu barədə ciddi düşünməyə sövq edə bilər.

Misal üçün, NATO üzvü olan ölkələrin 2018-ci ilin yayında keçirilmiş zirvə görüşündə amerikalı lider milli təhlükəsizlik üzrə müşavirlərinə alyansın mövcudluğuna lüzum görmədiyini deyib və ABŞ-ın qurumdan çıxmasını təklif edib. Nəşr yazır ki, bununla birgə, aralarında Pentaqonun keçmiş başçısı Ceyms Mettisin və milli təhlükəsizlik üzrə hazırkı müşavir Con Boltonun də olduğu nümayəndə heyətinin üzvləri prezidentin düşüncələrini nəzərə almadan hərbi strategiyanın əzəli kursuna uyğun hərəkət etməyə çalışıblar. Onların fikrincə, bu, ABŞ-ın Avropadakı təsir gücünü xeyli zəiflədə və Rusiyaya bir neçə onillik üçün "güc verə" bilərdi.

**Ermənistanın sabiq müdafiə naziri Seyran Ohanyana qarşı da 8 dinc nümayişçinin öldürüldüyü 2008-ci il 1 hadisələri ilə bağlı ittiham irəli sürülüb. Onun Ermənistanı tərk etməməsi haqda qərar çıxarılıb. Xatırladaq ki, həmin ildə Seyran Ohanyan Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi vəzifəsini tutub.**

Bundan qabaq isə Qarabağ klanının digər üzvü - o vaxtkı prezident, Xocalı hərbi canisi Robert Köçəryan həbsə salınıb. Eyni zamanda digər Xocalı canisi, eks-prezident Serj Sərkisyanın başının üstündə qara buludlar dolaşmaqdadır.



# Paşinyana Qarabağı boşaltmağa qarabağlılar imkan vermir - iddia

## Ermənistan hökumətinin yeni başçısının Qarabağ klanını zərərsizləşdirmək istəyinin pərdəarxası; **Tofiq Zülfüqarov:** "Ermənilərin milli ideyası bizə qarşı olmaq və əraziləri ilhaq etməkdir..."

Qeyd edək ki, bir müddət əvvəl Ermənistan baş naziri Nikol Paşinyan "son zamanlar Qarabağda ermənilərin fəallığını başa düşmürəm. Onlar niyə fəallaşıblar və niyə Ermənistanda keçirilən seçkilərə müdaxilə etmək istəyirlər? Mən Bako Saakyanı öz ətrafındakıları nizam-intizama öyrətməyə səsləyirəm", - deyə xəbərdarlıq etmişdi. Ardınca Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində fəaliyyət göstərən separatçı rejimin milli təhlükəsizlik xidmətinin direktoru Arşavir Karamyan və onun müavini Qarik Sarkisyan, həmçinin polis xidmətinin rəisi Kamo Ağacanyan tutduqları vəzifədən istefa verdilər. Paşinyan Dağlıq Qarabağdakı qondarma rejimin "prezidenti" Bako Saakyanın mətbuat katibi David Babayanı da hədəfə almışdı.

Bəs Paşinyanın dövründə əslən Qarabağdan olan rəqiblərin hədəfə alınması, onların həbsi və təqibinin arxasında hansı səbəblər dayanır? Yoxsa o, Qarabağla bağlı güzəştli addımlara hazırlaşır və bu addımlara mane olan Qarabağ klanını zərərsizləşdirir? Yəni Paşinyana Qarabağı boşaltmağa qarabağlılarmı imkan vermir?

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Qarabağ klanına qarşı aparılan prosesə Rusiya-Ermənistan münasibətlərindəki gərginləşmənin davamını da əlavə edərdi:** "Artıq Ermənistandakı Rusiya qoşunlarına aid ictimai rəy sərtləşir. İki gün bundan əvvəl Gümrü bazasının çıxarılması tələbi ilə növbəti aksiya keçirildi. Yəni burada mən Qarabağla yox, geopolitik dəyişikliklərlə əlaqələr görürəm. Ermənistanda həyata keçirilən həbslərin və digər baş verənlərin danışıqlara, yaxud güzəştlərə hazırlıq məqsədi daşıdığına inanmıram. Əsas məqsəd geopolitik dəyişikliklərlə bağlıdır. Mən deməzdim ki, Paşinyanın Qarabağla bağlı mövqeyi Köçəryan, Sərkisyan ya digərləri ilə ciddi şəkildə fərqlənir. Sadəcə olaraq, onlar istəyirlər ki, Rusiyadan asılılığı imkan dairəsində azaltsınlar və Qərblə əlaqələri gücləndirsinlər. Yəni Paşinyanın Rusiya səfəri, optimist ruhda gedişi, "mən gedib qaz problemini həll edəcəyəm" deməsi və nəticəsiz qayıtması ona bir növ ciddi şəkildə işarə idi ki, sən çox da özündən razı olma, bura sənin meydanın deyil. Dediyim kimi, bu hadisələrin əsas mahiyyəti geopolitik dəyişikliklərdir. İlk növbədə bu və ya digər səbəblərdən Rusiyanın Ermənistandan getməsi, digər tərəfdən, Ermənistanın Qərbin himayəsinə keçməsi paralel gedən siyasi istiqamətdir".

**Qarabağ mövzusuna gəldikdə, T.Zülfüqarov deyir ki, biz gərək bu iki istiqaməti əsas götürüb Qarabağa dair duruma o istiqamətlərə nəzərən qiymət verək:** "Çünki Qarabağ məsələsi əsas meyar deyil. Əgər Paşinyana hansısa mərhələdə Azərbaycanla dostluq və əməkdaşlıq əlaqələri lazım olsa, bəlkə də demək olardı ki, o, buna gedəcək. Amma onun buna ehtiyacı yoxdur. Ermənilərin milli ideyası bizə qarşı olmaq və əraziləri ilhaq etməkdir. Bunu ya Rusiyanın köməyi ilə reallaşdırmağa çalışacaqlar, ya da yeni bir strategiya seçib Qərblə öz siyasətlərini davam etdirəcəklər. Mənim baxışım belədir".

**Sabiq nazir istisna etmir ki, Qarabağ klanına qarşı sərt siyasət bu klan üzvlərinin Rusiya ilə yaxın əlaqələri, yaxud Moskvaya bağlılığından qaynaqlanır:** "Rusiya ilə bağlılıq bir amildir. İkinci amil ondan ibarətdir ki, Ermənistan kiçik ölkədir, burada gəlir gətirən bir-iki yer var, onları da çoxdan Qarabağ klanı mənimsəyib. Burada biz iqtisadi maraqları da nəzərə almalıyıq. Yəni Paşinyanın yanında onun siyasi elitası gəlib və onlar düşünürlər ki, bəs biz bu inqilabı nəyə görə etmişik? Ümumiyyətlə, inqilabdakı məqsədlərdən biri mülkiyyətin təzədən bölüşdürülməsi, ya da köhnə mülkiyyət sahiblərindən alınaraq təzələrə verilməsidir, ayrı məntiq yoxdur. Gec-tez səslənən şüarların axırında mülkiyyət götürülür, fransız inqilabını, ya başqalarını götürün, eyni hal baş verib".

**Belə qənaətə gəlmək olarmı ki, Paşinyan rəqiblərinə qarşı savaşın sonunda öz hakimiyyətini möhkəmləndirmək istəyir, sadəcə, Qarabağ mövzusundan sui-istifadə edir?**

**T.Zülfüqarov:** "Hakimiyyətin gücləndirilməsi də mülkiyyətlə əlaqədardır. Kimdə mülkiyyət varsa, onlardan alıb özünə, ya tərəfdarlarına paylayırsa, onda hakimiyyəti əldə edəcək. Başa düşürük, onu seçiblər, baş nazir ediblər. Qarabağdan başqa, Ermənistanın öz ərazisində nə qədər mülklər var, onlara sahib çıxmaq lazımdır. Yəni hakimiyyəti davamlı etmək üçün bu addımları atacaq. Gəlir gətirən sahələr, mülkiyyətlər ki, var, onları götürməsə, hakimiyyətini uzun müddət əlində saxlaya bilməyəcək".

**Sabiq nazir N.Paşinyanın Qarabağla bağlı ümidverici mövqe sərgilmədiyini də vurğuladı:** "Paşinyan Qarabağ məsələsinin həlli ilə bağlı çox da həvəsli deyil və ümidlər də yaratmır. Baxın, nə ümidlər yaradıb? Bəlkə hansısa bəyanatlar verib ki, gec və ya tez Azərbaycanla dil tapmalıyıq, biz qonşuyuq? Belə ümidlər yaratmaq üçün populist, demaqoji bəyanatlar verəcəkdi, belə bəyanatlar da eşitməmişik. Bir dənə arvadı deyib ki, analara müraciət edirəm və s. Yəni Paşinyanın bu istiqamətdə də fəaliyyətini müşahidə etmirik. Qarabağ mövzusu onu maraqlandırmır. Bu məsələ onu bir halda maraqlandırır ki, Dağlıq Qarabağın təhlükəsizliyi təmin ediləcək, yoxsa yox, vəssalam! Hətta Serj Sərkisyanı Qarabağı satmaq istədiyinə görə ittiham edirdi. Həmçinin Robert Köçəryanı başqa istiqamətə görə ittiham edir. Yəni burada Qarabağ söhbəti əsas məqsəd deyil. Ermənistan istəyir ki, Qarabağ da onun işğalında qalsın, Rusiya onun təhlükəsizliyini təmin etsin, İrəvan isə Qərblə əməkdaşlıq etsin. Bu, mümkün olan məsələ deyil. Bunlar bir-birinə zidd siyasi və geopolitik məfhumlardır".

**T.Zülfüqarov əmindir ki, Paşinyanın Qərbdən dəstəyi olmasaydı, Qarabağ klanına qarşı ilk gündən sərt addımlar atmazdı:** "Hamı başa düşür ki, bunlar siyasi baxımdan qorxulu insanlardır. İqtisadi baxımdan da imkanları genişdir. Yəni bunları aradan götürmədən geopolitik dəyişikliklər asan deyil. Bəs nəyə görə Moskva etiraz edir, deyir ki, "bu adamları burax"? Amma Moskvanın burada çox təkid etməsini də görmürəm. İrad tuturlar, amma təkid etmirlər. Təbrik edirlər, amma təkid etmirlər. Burada da imitasiya prosesi gedir ki, "biz bununla razı deyilik". Paşinyana şans verilir ki, nə qədər imkanı var, səhvləri buraxsın. Günün birində ruslar deyəcəklər "görürsünüz, bizi satdılar, filan şey elədilər, biz onlara qardaş kimi baxırdıq, amma onlar...""

**Zülfüqarov Qarabağ klanının revanşını gözləmir:** "Revanş gözlənilsəydi, Moskva Sərkisyan hakimiyyətinin belə asanlıqla yola salınmasına razı olmazdı. Sadəcə, Moskva Ermənistana aid marağını itirib və Qərblə - bilmirəm Qərblə koordinasiya olunmuş, ya olunmamış - bir siyasəti həyata keçirir".

**Belə bir situasiyada Azərbaycanın tutmalı olduğu mövqe barədə isə eks-nazir maraqlı fikirlər söylədi:** "Mən indiki taktikanı belə adlandırardım: gəlin təzə erməni rəhbərliyinə mane olmayaq, onlar nə qədər imkanları var, səhvlər etsinlər. Hansısa məqamda hamıya aydın olacaq və bəlli olacaq ki, zərbə vurmağın vaxtıdır".

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019

# Rüfət Aslanlı üçün "qəfəs" hazırlığı - istintaq gedir, ifadəsi alınır

Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının keçmiş sədrinin ölkədən çıxışına niyə yasaq qoyulmasının səbəbi bilindi; sabiq məmur haqda istintaq başladığı rəsmən təsdiqləndi; o, tezliklə müstəntiqlərin suallarına cavab verməli olacaq...

**Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının keçmiş sədri Rüfət Aslanlının adı ətrafında başlamış qalmaqal artıq hüquqi müstəviyə yönəlməkdədir. Qeyd edək ki, ötən ilin sonundan onun Azərbaycanın hüdudlarını tərk etməsinə qadağa qoyulub.**

Rəsmi olaraq bu qadağanın səbəbi bilinmir. Ekspertlərə görə, sabiq dövlət məmurunun ölkədən çıxışına qadağa qoyulması müxtəlif səbəblərdən mümkündür. Burada banka, dövlətə borclu olmaqdan tutmuş, hansısa cinayət işində iştiraka qədər çoxsaylı səbəblər ola bilər. Amma daha çox o ehtimal edilirdi ki, R.Aslanlının çıxışına hansısa cinayət işinə görə qadağa qoyulub.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev yanvarın 15-də keçirdiyi mətbuat konfransında R.Aslanlı ilə bağlı suala sensasion hesab oluna biləcək cavab verib. Musavat.com-un xəbərinə görə, mətbuat konfransında K.Əsədovdan son günlər mətbuatda R.Aslanlı ilə bağlı türk iş adamı tərəfindən ona ünvanlanan şikayət məktubu barədə soruşublar. K.Əliyev məsələ ilə bağlı geniş danışmaq istəməyib: **"İcazə verin, mən Rüfət Aslanlı ilə bağlı suala cavab verməkdən yayınım. Çünki bu məsələ ilə bağlı araşdırma aparılır. Mən indi deyəcəyim sözlə gələcəkdə atılacaq addımı qarşılamış olaram. Hər hansı bir ifadəm istintaqa təsir edə bilər. Ona görə də araşdırma yekunlaşdıqdan sonra ictimaiyyətə məlumat veriləcək".**

K.Əliyevin dediklərindən çıxan iki mühüm nəticə var. Əvvəla, dolayısı ilə təsdiqlənir ki, R.Aslanlının ölkədən çıxışına yasaq qoyulub və bu, medianın da iddia etdiyi kimi, məhz istintaqla bağlıdır. K.Əliyevin açıqlamasından gələn daha bir mühüm qənaət isə sabiq məmur haqda istintaqın başlanmasıdır. Onun bu vaxta qədər ifadəsi alınmayıbsa, demək, o, tezliklə müstəntiqlərin suallarına cavab verməli olacaq.




Yada salaq ki, R.Aslanlı barəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə Türkiyənin "Midek İnşaat Sanayi ve Dış Ticaret Ltd. Şti" şirkətinin nümayəndəsi Mustafa Veysel Güldoğan müraciət edib. Müraciət müəllifi bildirib ki, 2012-ci ildə R.Aslanlı ilə şirkətin təmsilçisi Murat İyigörür arasında müqavilə imzalanıb. ABŞ, İngiltərə, Belçika, Fransa, İtaliya kimi bir çox xarici ölkələrdən Türkiyəyə, oradan da Azərbaycana idxal edilib. Malların ümumi dəyəri 1 milyon 411 min 65 dollar məbləğindədir. R.Aslanlı 2016-cı ilədək hissə-hissə 603 min 14 dollar ödəyib. Onun şirkətə 808 min 51 dollar borcu qalıb. Şikayətçi qeyd edib ki, ilk olaraq müqavilə R.Aslanlının özü ilə bağlansa da, sonradan onun istəyi ilə sifarişlər köməkçisi İsayev Elmar İslam oğlunun adına göndərilib. Yazışmalarda E.İsayev danışıqları müdiri R.Aslanlının adından etdiyini bildirib.

M.Güldoğan əlavə edib ki, borcun qaytarılması üçün R.Aslanlı ilə əlaqə saxlasalar da, o, belə bir şirkəti tanımadığını və heç nə sifariş etmədiyini deyib. Rəsmi sənədlər ona təkrar göstərildikdən sonra isə sifarişlərin köməkçisi E.İsayevə məxsus olduğunu bildirib. Daha sonra isə onlara pulu ödəməyəcəyini, məhkəməyə verərlərsə, özlərinin ziyanlı çıxacağını deyərək hədələyib.

Mustafa Veysel Güldoğan müraciətinin sonunda Kamran Əliyevdən R.Aslanlının Cinayət Məcəlləsinin 178-ci (dələduzluq), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 309-cu (Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddələri ilə ittiham olunmasını xahiş edib.

Qeyd edək ki, müraciət əsasında ilkin dövr üçün araşdırma aparılmalı, konkret şəxs(lər)i məsuliyyətə cəlb etmək üçün yetərli dəlillər toplanmalıdır. Və yalnız bundan sonra ayrı-ayrı şəxslərə qarşı cinayət işi başlana bilər. Eyni zamanda nəticələrdən asılı olaraq konkret şəxslərə qarşı cinayət işi başlamaq, yaxud da cinayət işini rədd etmək haqqında qərar qəbul edilə bilər.

Ehtimal etmək olar ki, R.Aslanlı təkcə türk iş adamının müraciəti əsasında istintaqa cəlb edilməyib, onun digər əməlləri də araşdırılır. Çünki R.Aslanlının adı dəfələrlə müxtəlif korrupsiya qalmaqallarında iştirakda hallanıb. Korrupsiya yolu ilə sürətlə varlanan R.Aslanlı kralsayağı həyat tərzi keçirib və gündəlik xərcləri on minlərlə manat təşkil edib. O cümlədən korrupsiya yolu ilə əldə etdiyi vəsaitlərdən Böyük Britaniyada daşınmaz əmlak alıb. Rüfət Aslanlı həmçinin Fransada şəxsi üzümlük sahələrinə malikdir və orada öz adını daşıyan şərab buraxır. Daha əvvəl KİV keçmiş məmura aid olan bahalı saat və avtomobil kolleksiyaları haqda da yazıb.

**❑ ORXAN,**
**"Yeni Müsavat"**

# Korrupsiyaya qarşı Mübarizə İdarəsinin antikorrupsiya hesabatı

**Kamran Əliyev:** "25 şəxs cinayət başında yaxalanıb, 17 nəfər vəzifəsindən azad edilib, 278 cinayət işi məhkəmələrə göndərilib"

**Ötən il Azərbaycanda korrupsiya ilə bağlı 278 cinayət işinin istintaqı tamamlanaraq məhkəmələrə göndərilib. "Yeni Müsavat"ın məlumatına görə, bunu yanvarın 15-də Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev 2018-ci ildə görülmüş işlərlə bağlı keçirdiyi mətbuat konfransında deyib.**




Qeyd olunub ki, 2018-ci il ərzində Baş İdarədə 431 şəxs barəsində 278 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Həmin cinayət işlərindən 121 şəxs barəsində 68 iş mənimsəmə və israf etmə, 86 şəxs barəsində 55 iş dələduzluq, 33 şəxs barəsində 21 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 23 şəxs barəsində 13 iş rüşvət alma (passiv rüşvətxorluq), 46 şəxs barəsində 36 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olub.

**K. Əliyev həmçinin bildirib ki, korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ötən il 25 şəxsi cinayət başında yaxalayıb:** "Baş İdarə tərəfindən vətəndaşların 8058 müraciətinə baxılıb, həmçinin 310 cinayət xarakterli material araşdırılıb. Həmin materialların 222-si (71,7%) üzrə cinayət işi başlanıb, 88 (28,3%) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 61 nəfər vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilib.

Korrupsiya hüquqpozmaları barədə müraciətlərin fasiləsiz rejimdə qəbulu məqsədilə yaradılmaqla Baş İdarə ilə vətəndaşlar arasında mühüm əhəmiyyətli dialoq vasitəsi rolunu oynayan "161 Qaynar xətt" əlaqə mərkəzinə hesabat dövründə 3854 müraciət daxil olub, həmin müraciətlərin 19-u üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilib və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilib. Hesabat dövründə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində 25 şəxs cinayət başında yaxalanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında isə 24 cinayət işi başlanıb".

**K. Əliyev çıxışı zamanı qeyd edib ki, Azərbaycanda korrupsiya ilə əlaqədar 25 vəzifəli şəxsə xəbərdarlıq olunub, 17 nəfər vəzifəsindən azad edilib:**

"Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətləri və hüquqpozmalarının yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılmaqla preventiv tədbirlərin təsir gücünün məhz bu istiqamətlərə yönəldilməsi son illərin təcrübəsi ilə bir daha öz təsdiqini tapmaqdadır.

Belə ki, əvvəlki dövrlərdə olduğu kimi hesabat ilində korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilib, 32 xüsusət üzrə inzibati pozuntu aşkar edildiyindən İnzibati Xətalar Məcəlləsinin 54, 192.1 və 198.0.1-ci maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilərək aidiyyəti üzrə məhkəmələrə göndərilib. Araşdırılması üçün aidiyyəti qurumlara göndərilmiş müraciətlər üzrə aparılmış xidməti yoxlamalar nəticəsində vəzifəli şəxslərin hərəkətlərində aşkar edilmiş cinayət xarakterli olmayan hüquqpozmalar üzrə 25 vəzifəli şəxsə xəbərdarlıq, 16 vəzifəli şəxsə töhmət, 3 vəzifəli şəxs şiddətli töhmət növündə intizam məsuliyyətinə cəlb edilib, 17 nəfər isə vəzifəsindən azad edilib. Habelə, araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 157 təqdimat göndərilib.

Ötən ildə Baş İdarə ilə Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Qida Təhlükəsizliyi Agentliyi arasında səmərəli və işgüzar əməkdaşlıq əlaqələri intensivləşib, bu da öz növbəsində qabaqlayıcı əhəmiyyətə malik olmaqla, həmin sahələrdə korrupsiya cinayətlərinin və digər hüquqpozmaların vaxtında aşkar edilməsinə, onların aradan qaldırılmasına, həmin qanun pozuntularına yol vermiş şəxslərin ifşa edilərək cinayət və inzibati məsuliyyətə cəlb edilmələrinə və bununla da digər şəxslər tərəfindən qanun pozuntusuna yol verilməsinin qarşısının alınmasına böyük töhfə verib.

Belə ki, 2018-ci il ərzində Dövlət Gömrük Komitəsindən 17, Vergilər Nazirliyindən 7, Ekologiya və Təbii Sərvətlər Nazirliyindən 21, Qida Təhlükəsizliyi Agentliyindən 8, Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən 6, məhkəmələrdən isə 22 material Baş İdarəyə daxil olmaqla araşdırma aparılıb, nəticədə 43 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanıb".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019

# AŞ PA-nın qış sessiyası Azərbaycanla bağlı müzakirə ilə başlayacaq

## Fazil Mustafa: "Mehman Hüseynovla bağlı məsələdə Azərbaycan adının hallandırılması yolverilməzdir"

**Yanvarın 17-də Strasburqda AŞ PA-nın qış sessiyasının plenar iclasında blogger Mehman Hüseynovla bağlı məsələ qaldırılacaq. Bu barədə "Turan"a AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə məruzəçisi Stefan Şennax məlumat verib.**

Gənc bloggerin məsələsinin qış sessiyasının ilk iclasındaca müzakirəyə çıxarılmasının Azərbaycanla Avropa Şurası arasındakı əlaqələrə kölgə salacağı ehtimal edilir. Bundan əlavə, M.Hüseynov məsələsinin bu şəkildə şişməsinin və ölkə iqtidarının başağrısına çevrilməsinin kimlərə sərf etdiyi yönündə müxtəlif mövqelər səslənir.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat"a bunları dedi:** "Bu məsələ gündəlikdə yoxdur. Ola bilsin ki, kimlərsə iclasda qaldıra bilər. Bu məsələ qaldırıldıqda işin real vəziyyəti ilə bağlı Azərbaycan nümayəndə heyəti yəqin ki, orada sənədlər götürəcək. Mehmanın imzaladığı sənəd var ki, aclıq etməyib. Cinayət işinin açılması o demək deyil ki, hansısa bir məsuliyyətdir, burada onun məsuliyyətə cəlb olunması nəzərdə tutulub. Bu məsələ də müzakirə oluna və cinayət işinin təqib olunması onlar tərəfindən gerçəkləşdirilə bilər. Nümayəndələr gəlib görüşürlər, işin halları ilə tanışdırlar. Ona görə də buna xüsusi əlahiddə məsələ kimi baxmaq doğru deyil. Hələ ki cəza verilməyib, hansısa bir prosedura işlənməyib. Hər zaman bunun tərəfdarıyam ki, haqlı və ya haqsız, hansısa bir məsələ bəhanə verirsə, məsələnin üzərinə bu şəkildə getmək olmaz. Ayrı-ayrı məmurların yaratdığı problemin Azərbaycan adına mənfi yük gətirməsinə yol verməmək olmaz. Mehman Hüseynov məsələsinə gəlincə, adam cəzasını çəkir. Hansısa bir şəkildə bunu bu qədər gündəmə gətirməyin, onu məşhurlaşdırmağın, yaxud da onun ölkəyə hər hansı bir problem yaratmaq üçün bu tərzdə əlavə tədbirlərin görülməsinin fəsadları ortaya çıxır. Ümumiyyətlə, bunları müəyyən dərəcədə məhdudlaşdırmaq lazımdır. Belə məsələlərdə Azərbaycan adının hallandırılmasının yolverilməz olduğunu qəbul etməliyik. Bu tipli məsələlərdə daha həssas davranmaq lazımdır. Əgər əsaslı deyilsə, hansısa bir cinayət işi, yaxud ölkə üçün hər hansı bir problem yaradırsa, bunun belə formada ölkəmizə problem yaratmasına imkan verməmək lazım deyil. Hesab edirəm ki, bu məsələnin artıq üzərində düşünülür. Anlayışlı davranış sergiləməyini düşünürəm. Tamamilə unudulmuş Mehman Hüseynovu qəhrəmana çevirmək üçün sanki kimlərsə hakimiyyət daxilində xüsusi bir istək ortaya qoyurlar. Buna nə ehtiyac var? Heç xatırlayan var idi ki, Mehman Hüseynov haradadır? Kimdir? Nə işlə məşğuldur? Yaxud həbsxanadan buraxılan onlarla adam var, hanı onların adı, izi? Bu şəxslər həbsxanada qəhrəmana çevriliblər. Kimlərsə sanki həbsxanada qəhrəman yaratmaq istəyirlər. Özü də maraqlıdır ki, sanki bunu iqtidar içərisində etməyə çalışırlar. Bu qəhrəmanları yaradıb neyniriniz? Sizin nəyinizə lazımdır? Bu adamlar azadlıqda olanda nələrsə dəyişəcəkmi? Xüsusi bir əlahiddə istedad adamlarıdırmı? Bu məsələlərə bir az tənqidi yanaşmaq lazımdır. Biz gedək Qarabağ məsələsi ilə məşğul olaq, ciddi problemlərimizi gündəmə gətirək. Azərbaycana ittihamedici əsaslar verən addımlardan yayınmağımız lazımdır ki, ölkənin imicinə zərər gəlməsin".



**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı mövcud vəziyyətdən təəssüfləndiyini dilə gətirdi:** "Mehmandan öncə yaşlı bir insana - Əli İnsanova, onun da ardınca AXCP fəalı Məmməd İbrahimə əlavə maddələrlə cinayət işi açılıb. Təəssüflər olsun ki, artıq bu hallar Azərbaycanda ənənə halını almağa başlayıb. Bütün bunlara nə gərək var? Hər kəs Mehmanı müdafiə edir. Çünki o gəncdir, siyasi bir lider deyil. Önəmli bir yazısının olduğunu da deyə bilmərəm. Sadəcə, yaxşı fotoreportyordur. Gənc olan bu insanın bütün həyatı sındırılıb. Vaxtilə "Maqnitski siyahısı" var idi. Orada sanksiyaların tətbiqi nəzərdə tutulurdu. Bu işə görə çoxsaylı insanlar həbs olunub. Mehman ədalətsiz yerə həbs edilən və bu şəkildə də həbs müddəti uzadılan şəxslərdən biridir. Çoxsaylı gənclərin bu şəkildə həyatları puç olub. Onlar azadlığa çıxıb nə edə bilərdilər ki, bu şəkildə həbsxana həyatı yaşamağa məcbur ediliblər? Onlar cəmiyyət üçün də ziyanlı deyillər ki... Bu, Azərbaycan üçün çox ciddi bir məsələdir. Mehman məsələsinin bu qədər böyüməsi bir çox mətləblərdən xəbər verir. Kimlərsə deyir ki, qrant üçün bu məsələ bəzi şəxslər tərəfindən böyüdülür. Kimdir ondan ötrü qrant verən? Biz puldan daha çox imicimizi düşünməliyik. Təəssüflər olsun ki, xoş olmayan imicə doğru gedirik. Ona görə də AŞ PA-nın ilk sessiyaya Mehmanın məsələsi ilə başlamasını qınamıram. Azərbaycan bu məsələni mütləq həll etməlidir. Açığı Mehman məsələsinin AŞ PA-nın qış sessiyasının ilk iclasında müzakirə olunmasının Azərbaycanla Avropa Şurasının əlaqələrinə zərbə vuracağını düşünmürəm. Azərbaycan hökuməti keçən illər ərzində kifayət qədər təcrübə toplayıb. Düşünürəm ki, gərginlik istəməyən Azərbaycan tərəfi müəyyən addımlar atmalıdır. Gərginliyin olmaması Azərbaycan hökumətinin atacağı müdrik addımlardan asılıdır".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# General Frankodan Bakıya qədər uzanan "5-ci kolon" kimlərdir?

**İlk dəfə "5-ci kolon" 1930-cu illərdə İspaniyada yaranıb. Vətəndaş müharibəsi zamanı general Frankonun təxribatçı qrupu belə adlanırdı. O vaxt Frankonun generallarından Emilo Mela paytaxt Madridə doğru yürüş zamanı demişdi ki, "biz 4 kolonla hücuma keçirik, 5-ci kolon isə düşməni içəridən dağıdacaq".**

Bu ifadənin praktik mənası "5-ci kolon"un vəzifəsinin həm agent fəaliyyəti ilə məşğul olmaq, həm təxribatlar yaratmaq deməkdir.

Sonradan - ikinci cahan savaşı illərində alman faşistləri də müxtəlif ölkələrdə casusluq və təxribatlarla məşğul olan oxşar qruplar yaratmışdılar. Belə nasist qrupları da məhz "5-ci kolon" adlanırdı.

Son illərdə Azərbaycan siyasi kluarlarında da bu ifadə tez-tez istifadə olunur. Hakimiyyət rəsmilərinin çıxışlarında vaxtaşırı Qərbin ölkəmizdə "5-ci kolon"u olduğu və Azərbaycana qarşı içəridən dağıdıcı fəaliyyət göstərdikləri söylənir. Lakin bunun əksini deyənlər də var. Hətta bəzi deputatlar "5-ci kolon" deyərkən Kremlə eyham vururlar.

Kəsəsi, iqtidar mənsubları "5-ci kolon"un Qərbə xidmət etdiyini söyləyir, başqaları isə bu ifadəni ruspərəstlərə şamil edir.

Bu günlərdə deputat Qüdrət Həsənquliyev "5-ci kolon" haqda danışarkən deyib ki, xarici dövlətlərin ümid verdiyi, yaranacaq siyasi böhrandan istifadə edib hakimiyyətdə yerini möhkəmləmək, yaxud hakimiyyətə gəlmək istəyən qüvvələr var və Avropadan söyüş söyənlərin bir qrupu onlar tərəfindən yönləndirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Mübariz Qurbanlı isə deyib ki, Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvlərinin həbsdə olan blogger Mehman Hüseynovla görüşməsi məhz "beşinci kolon" nümayəndələri tərəfindən səsləndirilən iddiaların yalan və böhtan xarakterli məlumatlardan ibarət olduğunu bir daha sübuta yetirdi.



**Sərdar Cəlaloğlu:** "Müxalifətdə ruspərəst "5-ci kolon"un maraqlarına xidmət edənlər var"



**Həmid Herisçi:** "Azərbaycanda heç bir ölkənin "5-ci kolon"u yoxdur, sadəcə..."

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirdi ki, "5-ci kolon" cəmiyyət və dövlətlə bağlılığı olmayan, yad qüvvələrə işləyən, onların maraqlarına xidmət edənlərə deyilir:** "Azərbaycanı inkişafdan saxlayan və Rusiyanın maraqlarını burada yerinə yetirən həmin "5-ci kolon"dur. Onlar müəyyən postlarda vəzifələr tutublar". **S.Cəlaloğlu hesab edir ki, Azərbaycanda iranpərəst, qərbpərəst, ruspərəst qüvvələr var:** "Lakin ruspərəstlərdən başqa digərləri hələ kolon şəklində formalaşmayıblar. Faktiki olaraq Azərbaycanda Rusiyanın imperiya maraqlarının təmini həyata keçirilir. Hətta müxalifətdə də ruspərəst, "5-ci kolon"un maraqlarına uyğun hərəkət edənlər var. Onlardan ənənəvi müxalif qüvvələr arasında da var".

**Yazıçı-konspiroloq Həmid Herisçi isə dedi ki, "5-ci kolon" mücərrəd sözdür, yozmalara, konspiroloqlara danışmağa rəvac verir:** "Alış-veriş mövzusudur, dəqiq ölçüsü yoxdur, tarix boyu bu sözdən istifadə ediblər.

Əslində "5-ci kolon"dan daha çox, bu ifadənin özü maraqlara xidmət edir. Məsələn, mən inanmıram ki, Frankonun "5-ci kolon"u olub. Sadəcə, respublikaçılar düşərgəsində çaxnaşma yaradıblar.

Bunu Heminqueyin "Əcəl zəngi" romanında görə bilərsiniz. İspaniyada respublikaçılar saf idilər. O qarşıdurmada hamı öz yerini tapmışdı. Ola bilsin ki, casuslar olub. Amma Frankonun "5-ci kolon"u olmayıb".

**H.Herisçinin fikrincə, siyasi qurumlar politexnoloji əsası olmayan bu ifadədən çox yaxşı istifadə edirlər:** "Azərbaycanda heç bir ölkənin "5-ci kolon"u yoxdur, olsaydı, hüquq-mühafizə orqanları öhdəsindən gələrdi.

Sadəcə, bu söz siyasi spekulyasiya vaxtı gündəmə gəlir. Qərbpərəstlər bir cür, ruspərəstlər bir cür, fundamentalistlər başqa cür kolon sözündən istifadə edirlər. Məqsəd bir-birini çürütməkdir, casus, əcinnə ovuna çıxmaqdır. Ona görə də ünvansız sözdür. Bu ifadəni ortaya atırsan, konspiroloji at gedişi edirsən. Düşmənin arxa cəbhəsinə keçib çaxnaşma yaratmaq üçün "5-ci kolon" ifadəsi işlədilir. Şahmatçılar bunu yaxşı bilirlər. Çünki şahmatda belə gediş var".

**❑ Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# İnqilabi struktur islahatları-büdcəyə qənaət və çevik idarəetmə

## Struktur islahatlarının gətirəcəyi faydalardan biri də ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsi və rəqabətin gücləndirilməsindən ibarətdir

**Xəbər verdiyimiz kimi, yanvarın 14-də prezident İlham Əliyev tərəfindən dövlət idarəetmə aparatında struktur dəyişikliklərini nəzərdə tutan bir neçə fərman imzalayıb.**

"Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmana əsasən Prezident yanında Elmin İnkişafı Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilməklə yenidən təşkil ediləcək.

Eyni zamanda Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Prezident yanında Bilik Fondu və Prezident yanında Strateji Araşdırmalar Mərkəzi ləğv olunub. Prezident yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu, habelə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi ləğv edilərək onların fəaliyyətinin ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil olunmasına qərar verilib.

Prezidentin digər fərmanı ilə Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılıb. Agentlik baytarlıq və fitosanitar xidmətlərinin təşkilini və idarə edilməsini, keyfiyyətinə nəzarəti həyata keçirir, bu sahədə dövlət aqrar inkişaf mərkəzlərinin (DAİM) fəaliyyətini əlaqələndirir, kənd təsərrüfatı texnikasının qeydiyyatını, texnikaya nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini DAİM vasitəsilə həyata keçirir, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort sınaq məntəqələri və toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkilinə və göstərilməsinə nəzarət edir.

Nəhayət, prezidentin fərmanı ilə Müdafiə Sənayesi Nazirliyi ləğv olunaraq onun bazasında "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti (ASC) yaradılıb.

### İdarəetmədə çeviklik və səmərəlilik artır

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edir ki, aparılan struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir:** "Struktur islahatları dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdırır. Cənab prezidentin apardığı struktur islahatları iqtisadiyyatın əsas məsələsi - səmərəliliyin daha da artırılmasına xidmət edir. Məhz səmərəli dövlət idarəetmə aparatı cənab prezidentin tapşırıqlarına uyğun olaraq məhdud resurslardan istifadə etməklə maksimum nəticə əldə edə bilər. Struktur islahatlar institusional və tənzimləyici çərçivəni iqtisadiyyatın tarazlı inkişafına xidmətə yönəldir".



**V.Qasımlının sözlərinə görə, struktur islahatlarının gətirəcəyi faydalardan biri də ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsi və rəqabətin gücləndirilməsindən ibarətdir:** "Çünki yığcam və məqsədyönlü dövlət aparatı özəl sektorun fəaliyyətinə müdaxiləni minimuma endirməklə daha çox bazar tənzimlənməsinə şərait yaradır. Beləliklə, dövlət və bazar tənzimlənməsinin optimal nisbəti müəyyənləşir ki, bu da özəl sektorun lokomotiv olduğu iqtisadi inkişafı təmin edir.

Struktur islahatları, xüsusilə "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti və Aqrar Xidmətlər Agentliyi ölkədə aparılan diversifikasiya siyasətinə xidmət göstəməklə, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, qeyri-neft ixracının genişlənməsi, idxalın əvəzlənməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və ordunun hərbi-texniki təchizatında kəmiyyət və keyfiyyət göstəricilərinin daxili istehsal hesabına yüksəldilməsini təmin edəcəkdir.

Dövlət aparatının yığcamlaşması, paralel strukturların aradan qaldırılması və mövcud strukturların isə yenidən təşkili büdcə vəsaitinə qənaət deməkdir. Əslində dövlətin apardığı struktur islahatları həm biznesə, həm də ictimaiyyətə idarəetmənin səmərəliliyinin artırılması ilə bağlı yaxşı bir nümunədir".

**Mərkəz rəhbəri hesab edir ki, struktur islahatları çərçivəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətləri daha əlçatar və keyfiyyətli olacaq:** "Bir pəncərə və rəqəmsallaşma kimi prinsiplər struktur islahatları boyunca keçən əsas süjet xəttidir. Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlar zamanı daimi olaraq sosial tarazlıq qorunub. Bu dəfə də struktur islahatları zamanı iş yerləri ilə təminat məsələsi diqqətdə saxlanılıb. Müvafiq qurumlar və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi bu sahədə cənab prezidentdən xüsusi tapşırıqlar alıb".

### İslahatlar davam etdirilməlidir

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlunun sözlərinə görə, idarəetmə strukturunun optimallaşdırılması, büdcə vəsaitlərindən istifadənin rasionallaşdırılması məqsədilə paralel orqanların ləğvi, birləşdirilməsi və dövlət idarəçiliyinin daha yaxşı təşkil edilməsi məqsədəmüvafiqdir:** "Ayrı-ayrı nazirliklərin, Prezident Administrasiyasının yanında fondların, agentliklərin və katibliklərin fəaliyyət göstərməsi doğru yanaşma deyil. Bu, idarəetmə aparatının şişməsinə gətirib çıxarır. Bilik Fondu dörd il idi ki yaradılmışdı, görünür, özünü doğrultmayıb. Elmin İnkişafı Fondunun əsas məqsədi fundamental elmi tədqiqatların maliyyələşdirilməsidir. Doğrusu, bu fondun fəaliyyətində indiyədək səmərəli nəticə görməmişəm".

**SAM-ın ləğvinə gəlincə, Q.İbadoğlu hesab edir ki, belə mərkəzlər müstəqil olmalıdır:** "Orada tədqiqat və faəliyyət azadlığı olmalı, alternativ fikirlər istehsal olunmalıdır. Strateji Araşdırmaları Mərkəzi 2007-ci ildə yaradılmışdı. Bu mərkəzdə müəyyən bacarıqlı kadrlar toplansa da, ümumi fəaliyyətində ciddi uğurlar müşahidə olunmadı. İstənilən halda, hər hansı beyin mərkəzinin ləğvinin tərəfdarı deyiləm. Bu baxımdan, düşünürəm ki, mərkəzin müstəqilliyinin təmin olunması onun faydalı fəaliyyətini təmin edərdi".

**İqtisadçı-alimin fikrincə, digər istiqamətlər üzrə həyata keçirilən dəyişikliklər idarəetmədə çevikliyin təmin olunması baxımından müsbət addımlardır:** "Hesab edirəm ki, bu addımlar davam etdirilməlidir. Eyni zamanda bu cür addımların xüsusi hazırlanmış islahatlar paketinin tərkib hissəsi kimi müəyyənləşdirilməsi çox vacibdir. Diqqətimi cəlb edən məsələlərdən biri Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin ləğvidir. Bu agentlik müasir çağırışlara uyğun olan bir sahədə fəaliyyət göstərirdi. Bu sahənin dövlət dəstəyi olmadan, sırf kommersiya əsasları ilə inkişaf etdirilməsi mümkün deyil. Bu baxımdan, hesab edirəm ki, hansısa formada bu sahəyə dövlətin dəstəyi təmin olunmalıdır".

### Aqrar sahədə islahatlar üçün mühüm amillər vardı

**Kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Nicat Nəsirli bildirir ki, 2018-ci ildə dövlət səviyyəsində qida və kənd təsərrüfatına baxışlar mahiyyətcə dəyişdi, aqrar siyasəti həyata keçirən mərkəzi icra qurumunun rəhbərinin dəyişdirilməsi isə ciddi islahatların aparılacağını deməyə əsas verirdi:** "Əslində islahatların aparılması üçün mühüm amillər vardı, aqrar sektor ölkənin ümumi inkişafı fonunda çağırışlara cavab vermirdi. İllərdir aqrar siyasətin qarşısına qoyulmuş xidmətyönümlü sahəyə çevrilmək, məşğulluq səviyyəsinin yüksəldilməsi, təsərrüfatlarda dəyər zəncirinin yaradılması kimi hədəflər həyata keçirilmirdi. Faktdır ki, bu gün fermerlərin istehsal prosesini təşkil etmək üçün çoxsaylı xidmətlərə ehtiyacı var və bu xidmətlər fasiləsiz olaraq verilməlidir. Fikrimcə, ötən ilin ikinci yarısından başlamış institutsional islahatların əsas məqsədi kənd təsərrüfatının xidmət sektorunun müasir tələblər səviyyəsində yenidən təşkilidir. Rayonlardakı kənd təsərrüfatı idarələrinin ləğv edilərək DAİM mərkəzlərinin yaradılması, KTN-in xidmət qurumlarında aparılan kadr islahatları, texnika və damazlıq heyvan bazarında biznes münasibətlərinin formalaşdırılması məqsədilə "Aqrolizinq" sistemində aparılan köklü dəyişiklik, kənd təsərrüfatı kreditləri alətlərinin yenidən təşkili, arıçılığın subsidiyalaşmağa cəlb edilməsi, Qida Təhlükəsizliyi Agentliyinin, Aqrar Tətqiqatlar Mərkəzinin fəaliyyətə başlaması, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin ləğv edilərək yenidən təşkili istiqamətində atılan addımlar, eyni zamanda Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Aqrar Xidmətlər Agentliyinin yaradılması kənd adamlarına göstərilən xidmətlərin lazımi səviyyədə olmamasını göstərirdi və yəqin ki, bu sahədəki problemləri xeyli dərəcədə aradan qaldıra biləcək. Əvvəlki dövrlərdə hesab edirdilər ki, xidmətlərin operativ çatdırılması üçün hər xidmət üzrə ayrıca qurumların yaradılması vacibdir, indi isə siyasət onun üzərində qurulub ki, bütün xidmətlər vahid pəncərədən təqdim edilsin".

**Mütəxəssis hesab edir ki, 2019-cu ildə qarşıda duran hədəflər baxımından instutsional islahatların aparılması vacib addımdır:** "Bu il elektron kənd təsərrüfatı sisteminin qurulması, aqrolizinq xidmətlərinin özəlləşdirilməsi, damazlıq heyvan və gübrə dəstəyinin optimallaşdırılması, xırda təsərrüfatların birləşdirilməsi-kooperasiya münasibətlərinin yaradılması, qida məhsulları üzrə özünütəminetmə səviyyəsinin 100 faiz həddinə çatdırılması, torpaqların məhsuldarlığının yüksəldilməsi, yem əkinçiliyinin genişləndirilməsi, əl əməyi və digər problemlərin aradan qaldırılması kimi problemlər həllini tapmalıdır. Əks təqdirdə, aqrar iqtisadiyyatda əsaslı dönüşün yaranması mümkün olmayacaq".

### İslahatlar aqrar sektorda innovativ həllərin tətbiqinə imkan verəcək

**Kənd Təsərrüfatı Nazirliyində isə hesab edirlər ki, nazirliyin tabeliyində olmuş 4 qurumun əsasında Aqrar Xidmətlər Agentliyinin yaradılması optimallaşmanı, çevik və səmərəli idarəetməni təmin edəcək:** "Həyata keçirilən islahatlar aqrar sektorda innovativ həllərin tətbiqinə imkan verəcək, elektron xidmətlərə keçidi sürətləndirəcək və şəffaflığı daha da artıracaq.

İslahatlar nəticəsində aqrar xidmətlərdə vahid standartlar tətbiq olunacaq. Bu addımlar dövlət xidmətlərini fermerlər üçün daha əlçatan edəcək. Xidmətin keyfiyyətinə daim nəzarət olunacaq.

Bu xidmətlər Dövlət Aqrar İnkişaf Mərkəzləri vasitəsilə göstəriləcək, agentlik bu sahədə DAİM-lərin fəaliyyətini əlaqələndirəcək".

**Nazirlikdən bildirildiyinə görə, hazırda DAİM-lərdə fermerlərə müxtəlif fəaliyyət növləri üzrə 70-dək xidmət göstərilir:** "Aparılan struktur dəyişiklikləri ilə əlaqədar bu xidmətlərin sayı daha da artacaq. İmzalanan fərman aqrar sahədə mövcud çağırışlara cavab verir və vətəndaş məmnunluğunu artırmağa hədəflənib".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019



# Ağsaqqal rolu

**Zamin HACI**
zaminhaci@gmail.com

"Altı qara qoyunun neçə ayağı var?"
***(6-cı sinif "Riyaziyyat" dərsliyimizdən məsələ)***

**Gənc Tamaşaçılar Teatrında bəzi aktyorları işdən çıxarırlar, deyirlər, pensiya yaşınız çatmışdır. Onlar isə çıxmaq istəmir, deyirlər, 140 manatla necə yaşayacağıq, üstəlik, aktyoru yaşına görə işdən çıxarmaq məntiqsizdir, bəs sabah yaşlı adam rollarını tamaşalarda kim oynayacaqdır.**

Mən davaya qarışmaq istəmirəm, ancaq hər iki tərəf haqlı görünür. Son illər hansı teatrı ləğv eləmək lazım gəlibsə, aparıb yığıblar bu "Tyuz"un (teatr rusca adının baş hərfləri ilə - el arasında bu cür tanınmışdır; həm də elə bil tuz deyirsən, mənalı alınır) damının altına. Nəticədə orada ştat vahidləri şişibdir, binaya sığışmır. Hətta bəzi artistlər məcburən keçib qonşu Azərbaycan Yazıçılar Birliyində, Axundov kitabxanasında artistlik edirlər. Teatr özü isə daha çox Yeni ildə Şaxta baba və Qar qız, Novruzda Kosa-Keçəl, bələdiyyə seçkilərində DSK sədri obrazlarını yaşatmaq üçün saxlanılır, sözgəlişi, teatrın bədii rəhbərlərindən Cənnət xanımın belə dövlət tədbirlərinə rejissorluq etmək üçün böyük təcrübəsi vardır, buradan onu alqışlayır, uzun ömür, cansağlığı diləyirik.

Yəni yaşlı adam, ağsaqqal, qarı roluna teatrın ehtiyacı yoxdur. (Şaxta babanın adına baxma, bizdə istənilən uşağa saqqal taxıb Şaxta baba işinə soxmaq olar; bu qış uşağın məktəbində Şaxta baba rolunu hətta qapıçı Gülbəs xala oynadı, hamıdan da parlaq oynadı). Bəs qrim sənəti nə üçündür? Həm də biz getdikcə cavanlaşan, gəncləşən, regionun lider dövlətinin vətəndaşlarıyıq. Bizdə qoca artistə niyə ehtiyac olsun? O klassik əsərimizdən ("Danabaş kəndinin məktəbi") sitatı tərsinə çevirsək, bizdə yaşlı adam yoxdur, nəçənnik.

Ümumiyyətlə, yaxın zamanlarda artist peşəsi bizdə hörmətsiz bir peşəyə çevriləcəkdir, bunu mən size əminliklə deyirəm. Çünki baxırsan, hamı artistliklə məşğuldur. Uşaqdan böyüyə, arvadlı-kişili, kasıb-pullu... Nə qədər artist olar? Hamı rol oynayır.

Sözgəlişi, bu yaxında Almaniyada bir sürü erməni mühaciri qovmaq qərarına gəlmişdilər, sən demə, bunlar orada özlərini azərbaycanlı kimi qələmə vermək istəyirmiş. Guya bizim hökumətin sıxışdırdığı siyasi mühacirlərdir. Maraqlıdır ki, bəzi azərbaycanlılar da Avropa ölkələrindən... erməni adı altında sığınacaq istəyirlər və alırlar. Bu da çox əcaib haldır. Hərə öz evində oturub sülh şəratində yaşamaq əvəzinə axmaq müharibələr çıxarır, sonra düşmənin roluna girib üçüncü ölkəyə qaçırıq. Bu yerdə bir köhnə lətifə yadıma düşdü. Müharibə veteranı nəvəsinə xatirə danışır ki, Belarus tərəfdə meşədə qızğın döyüş gedirdi. Gah nemeslər üstün gəlirdi, gah biz üstün gəlirdik. Nəvə soruşur, bəs axırı nə oldu? Baba deyir: "Heç zad, axırda meşəbəyi gəlib hamımızı qovdu". İndi bizim bu Qafqaz kimi regionlara da ciddi meşəbəyi lazımdır.

Gör hara gəldik çıxdıq. Əlbəttə, mən siyasətə qarışmıram, yuxarıdakıları sitat olaraq verdim, öz fikrim deyildir. Öz fikrimi mən özümdə saxlayıram. Nəyə görə oxucularla bölüşməliyəm? Onların öz fikri özlərinə bəsdir. Ümumiyyətlə, yaxşı olar hərə öz fikrini yaxşı qorunan bir yerində saxlasın, çox ortalığa çıxartmasın. Yalnız bu halda biz ümumi bir fikrə gələ bilərik. Yoxsa hərə fikrini töksün ortaya, fikir fikirə qarışsın, bilinməsin kimin fikri hansıdır, hansı fikir haradan çıxıb, belə yaramaz. Ağıllı fikirləşincə, dəli axmayan çayın üstündən körpü projesi verib, pul qazanır. Yüz fikir bir borcu ödəmir - bu da var.

Yeganə sevindirici hal odur ki, dünən rayonlarımızdan birində qoyunun altı ayaqlı balası dünyaya gəlmişdir. Çoxdan belə ictimai-siyasi, milli-mənəvi, sosial-mədəni əhəmiyyətli xəbər almırdıq, vətən haqda az qala nigaran qalmışdıq. Axı qoyunların altı ayaqlı quzu doğmadığı ölkələr qabağa gedə bilməz! Dövlətin inkişafı üçün bu, çox önəmlidir. Bircə fındığın üzərində "Allahu əkbər" yazısının tapılması qalıb, inşallah, onu payızda görərik.




# ABŞ-ın kürd "sevgisi" Azərbaycanı da təhdid edir-təfərrüat

## Rus politoloqdan iddia: "Göstərilən ssenarinin gerçəkləşməsi halında hərc-mərcliyin yeni dalğası Cənubi Qafqazı, özəlliklə də İranla uzun sərhədi olan Azərbaycanı basacaq..."

**Kürd məsələsi ABŞ və Türkiyə arasında böhrana səbəb ola bilər. ABŞ prezidentinin Suriya kürdlərini müdafiə edən çıxışı Türkiyədə qəzəb doğurub. Xatırladaq ki, bazar ertəsi günü ABŞ prezidenti sosial şəbəkə hesabından yazıb ki, əgər Türkiyə kürdləri vurmağa başlasa, Vaşinqton Türkiyəni iqtisadi embarqolarla məhv edər. Eyni zamanda o, Türkiyə və Suriya kürdləri arasında 20 mil uzunluğunda ayırıcı zona yaradılacağı, kürdlərin Türkiyəyə qarşı təhdid yaratmasını istəmədiyini deyib.**

Bu təhdiddən bir gün sonra ABŞ və Türkiyə prezidentləri arasında telefon danışığı baş tutub. Açıqlamadan məlum olur ki, liderlər söhbət zamanı Trampın Türkiyəyə embarqo təhdidini müzakirə etməyiblər. Danışıqlar zamanı Türkiyə prezidenti ABŞ ordusunun Suriyadan çıxarılmasını məmnuniyyətlə qarşılayıb və bununla bağlı Vaşinqtona dəstək verməyə hazır olduğu vurğulanıb. Bundan başqa, danışıqlarda Türkiyə və kürdlər arasında təhlükəsizlik bölgəsi yaradılması qərarlaşdırılıb. Ərdoğan deyib ki, Tramp ordunun Suriyadan çıxacağını təsdiqləyib. O, Trampla telefon danışıqlarında "tarixi fikir birliyinə nail olduqlarını" deyib.

Ancaq göründüyü kimi, iki lider kürd mövzusunda hər hansı konkret razılaşma əldə etməyiblər. Yəni ABŞ administrasiyası kürd məsələsində əvvəlki qərarlı mövqeyini dəyişməyib. Yeri gəlmişkən, Trampın qoşunların Suriyadan çıxarılması barədə qərarından sonra bir sıra amerikalı siyasətçilər kürdləri müdafiə edən açıqlamalar verib. Hətta ABŞ müdafiə naziri Mattis istefa verib. Ötən həftə Türkiyəyə səfər edən ABŞ prezidentinin müşaviri Con Bolton Türkiyədən kürdlərə hücum etməməklə bağlı vəd aldıqlarını bildirib.

Əcəba, ABŞ hakimiyyətinin kürdlərə bu qədər dərin sevgisinin səbəbi nədir? Nədən Vaşinqton Suriyada bir neçə milyonluq kürd icmasını qorumaq üçün ordunu orada saxlamaq, hətta ərəb ölkələrinin dəstəyini göndərməyə çalışır, hətta Türkiyə kimi NATO-dakı əsas orduya sahib ölkə ilə qarşı-qarşıya gəlməyi gözə alır? ABŞ üçün kürdləri bu qədər vazkeçilməz edən nədir?

Məlum olduğu kimi, ABŞ-ın kürdlərlə Suriyadakı əməkdaşlığının tarixi 2013-cü ildən sonraya aiddir. Həmin il Suriya və İraqda aktivləşən İŞİD bir sıra bölgələri ələ keçirdi və bu zaman məlum oldu ki, ABŞ hökumətinin də dəstəklədiyi, hətta bir hissəsinə 2012-ci ildə təlim keçdiyi üsyançı islamçıların (əsasən ərəblər - K.R.) bir çoxu sonradan amerikalılardan aldıqları silahlarla birlikdə İŞİD-ə qoşulub. Üstəlik, həmin vaxt Ankara ilə Vaşinqtonun arası soyuqdu və Suriyanın taleyi məsələsində Ankara addımlarını heç də Vaşinqtonun addımları tutuşdurmurdu. Bu zaman Vaşinqton üçün kürd alternativi meydana çıxdı, çünki kürdlər də bu zaman Qərbə himayəçi axtarırdılar.

Suriyanın əsasən şimal bölgələrində, Türkiyə və İraq sərhədinə yaxın 3 kantonunda (sonradan kürdlər daha bir kantonu ələ keçirərək 4 etdilər - K.R.) yaşayan kürdlərin sayı bəzi məlumatlara görə, 2 milyondan çoxdur. 2011-ci ildə Suriyada hadisələr başlayan zaman kürdlərin Suriyada pasportları belə yoxdu. Yalnız hadisələrdən sonra Bəşər Əsəd hökuməti kürdlərə müəyyən güzəştlər, o cümlədən pasport verdi. Suriyada hadisələr başlayandan sonra siyasi baxımdan təşkilatlanmış kürdlər tezliklə həm siyasi, həm də hərbi sahədə mərkəzləşdirilmiş hakimiyyət qurdular. PYD-nin hərbi qanadı YPG yaradıldı, daha sonra onun qadın qolu olan YPJ quruldu. İlk vaxtlarda YPG kürd kəndlərini islamçı silahlılardan, "Əl-Qaidə" və İŞİD hücumlarından müdafiə edirdisə, 2013-cü ilin sonlarından başlayaraq Suriya ordusunun çəkilməsindən sonra kürdlər sahib olduqları bölgələri nəzarətə götürməyə başladılar. 2014-15-ci illərdə kürdlər bölgədə əsas silahlı güc olan İŞİD-lə ağır savaşa girdilər, Kobani qəsəbəsi uğrunda kürdlər 5 ay İŞİD-in aramsız hücumlarına müqavimət göstərdilər. Nəticədə ABŞ-ın hərbi hava qüvvələrinin də dəstəyi ilə İŞİD-i Kobanidən qovmaq mümkün oldu və kürdlər bölgədə parlayan silahlı gücə çevrildilər. Bu dövrdə ABŞ daha yaxşı təşkilatlanmış, radikal islamla əlaqəsi olmayan (Suriya kürdləri sol təmayüllü təşkilatlarda birləşir - K.R.) kürdləri özünün əsas müttəfiqi olaraq görməyə başladı.

2017-ci ildə isə Pentaqon Ankaranın israrlarına rəğmən Raqqa əməliyyatını kürdlərlə bərabər həyata keçirəcəyini bəyan etdi. Bu əməliyyat uğurlu oldu və Raqqa indi ABŞ-kürd ittifaqının nəzarətindədir. Bu əməliyyata görə Vaşinqton kürdlərə 2017-ci ildə 300 milyon dollar, sonrakı illərdə isə 250 milyon dollar dəyərində silah və texnika bağışladı.

Ancaq məlum məsələdir ki, ABŞ-ın kürdlərə dəstəyinin arxasında təkcə Suriya kürdləri faktoru dayanmır. Məlum oldu kimi, Yaxın Şərqin 4 böyük ölkəsində - Türkiyə, İran, İraq və Suriyada - kürdlər yaşayır. Kürd mənbələri bu ölkələrdə və digər regionlarda (bunların içərisində Azərbaycan da var - K.R.) kürdlərin ümumi sayının 40 milyona yaxın olduğunu iddia edirlər. Və yuxarıda qeyd olunan 4 ölkədə kürdlər hərbi-siyasi gücə sahibdirlər. İraqda kürd muxtariyyəti 1971-ci ildən mövcuddur. 2003-cü ildən sonra İraq kürd muxtariyyəti öz ordusu, silahlı qüvvələri və parlamenti olan yarı müstəqil quruluşdur. Türkiyədə kürd siyasi qüvvələri 1980-ci illərdən təşkilatlanıb. Bundan başqa, PKK kimi silahlı kürd terror təşkilatı Türkiyə daxilində sabitlik üçün ciddi təhdidə çevrilib. İranda isə PEJAK qruplaşması zaman-zaman aktivləşərək hökumət qüvvələrinə qarşı hücumlar edir. İkinci Dünya müharibəsindən sonra kürdlər iki dəfə 1947-ci il Mahabad Respublikası və 1979-cu il İslam İnqilabından dərhal sonra kürd üsyanı başlayıb. Ancaq hər ikisində mərkəzi hökumət kürd üsyanını yatırsa da, İranda kürd silahlı üsyanlarının kökü var. Bu səbəbdən də hazırda İran üçün daxildən əsas təhdidlərdən biri məhz kürd faktorudur.

**Yeri gəlmişkən, bu faktı politoloq Stanislav Tarasov regnum.ru saytında dərc olunan məqaləsində qeyd edib. "Strateq.az" saytında yayılan məqalədə qeyd olunur ki, Vaşinqtonun kürdlərdən "dörd əlli" yapışmasının səbəbi İrana qarşı planlaşdırılan fəaliyyətlərdir. Çünki Vaşinqton həm də Tehranı daxildən zəiflətməyə çalışır. Sitat:** "Bütünlükdə aydın olur ki, Vaşinqton hərbdən savayı İrana təsir etməyin bütün cəbbəxanasını işə salıb. Amma Pompeo bundan sonra "cürbəcür üsullar" işlətmək niyyəti və "gərəkli hərbi əməliyyatları yerinə yetirməyi davam etdirmək" bacarığından danışır...

Təsadüfi deyil ki, Vaşinqton Ankara ilə dialoqda Suriya kürdlərini satmır, Amerikanın "The National Interest" nəşrinin dəyərləndirdiyinə görə, indiki mərhələdə "daha çox İranın maraqlarına meyllənən" İran kürdlərinin separatizmini - müəyyən şərtlərlə - fəallaşdırmaq imkanına aşkarca bel bağlayır".

Müəllif iddia edir ki, "göstərilən ssenarinin gerçəkləşməsi başlanacağı halda hərc-mərcliyin yeni dalğası artıq təkcə Yaxın Şərqi deyil, həm də Cənubi Qafqazı, özəlliklə də İranla uzun sərhədi olan Azərbaycanı basacaq. Hələlik isə amerikalıların Suriyadan elan edilən gedişindən sonra elə görünür ki, Tehran Türkiyə ilə yanaşı, obyektiv şəkildə daha uduşlu durumda qalır. Amma bu, bölgədəki oyunun növbəti mərhələsinin başlanğıcı ola bilər".

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019

# Ermənilər tamaşa yox, çörək istəyir - Bakının şərti qəbul olunsa...

## 8 ayda 2 dəfə baş nazir təyin edilən inqilab liderinin həll etməli olduğu əsas məsələ; ölkədə yeni narazılar kütləsi yetişir; **erməni nəşrindən SOS!:** "9 dekabrdan sonra zaman Paşinyan və kabinetinin əleyhinə işləyir..."

**Ermənistanda yeni hakimiyyət rəsmiləşdi. Nikol Paşinyan inqilabdan sonra keçən 8 ayda prezident Armen Sərkisyan tərəfindən ikinci dəfə baş nazir təyin edilməklə tam legitimlik qazandı və düşmən ölkədə hakimiyyət dəyişikliyi başa çatdı.**



Maraqlı və qəribədir ki, bu dəfə Nikola ilk və "isti" təbriklər Qərbdən, ABŞ-dan yox, postsovet ölkələrindən - Paşinyana gizli antipatiyası olan Rusiya lideri Vladimir Putindən və Belarus prezidenti Aleksandr Lukaşenkodan gəlib - hansı liderlər ki, ABŞ və Avropa Birliyi yetkililəri və rəsmilərindən fərqli olaraq, 9 dekabr növbədənkənar parlament seçkilərində Paşinyanın qələbə münasibətilə təbrik etməyi özlərinə rəva görməmişdilər.

*****

Lakin təbriklər, səmimi arzular hələ N.Paşinyan və komandasının daxili və xarici siyasətdə uğurlu ola biləcəyi anlamına gəlmir. Artıq Ermənistanın irili-xırdalı bütün problemlərinə rəsmən sahib çıxmış sayılan yeni baş nazir ilk növbədə onu iqtidara gətirmiş narazı kütlənin əsas gözləntisini doğrultmalıdır. Çünki ictimai etimad məsələsi buna birbaşa bağlıdır.

Söhbət ən əvvəl əhalinin güzəranını inqilabdan əvvəlki ilə müqayisədə yaxşılaşdırmaqdan, yeni iş yerləri açmaqdan, yoxsulluğun və ölkədən kütləvi köçün səviyyəsini minimuma endirməkdən gedir. Hələ ki bu yöndə təzə hökumət uğura nail ola bilməyib. Ötən 8-9 ayda bu hökumət daha çox korrupsiya ilə mübarizə adı altında köhnə komandanın oliqarxik üzvlərinin həbsi və təqibi ilə, yeni populist bəyanatları ilə yadda qalıb ki, bununla da erməni xalqının qarnı doymur.

Artıq Paşinyanın qatı tərəfdarları arasında da bu xüsusda məyusluq baş qaldırmağa, hətta SOS siqnalları verilməyə başlayıb.

*****

"Son 8-9 ayda xalq kifayət qədər tamaşa gördü. Tamaşa baxımından qıtlıq olmadı". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə Paşinyanın və "məxməri inqilab"ın tərəfdarı kimi tanınan 1 in.am erməni nəşrində dünən siyasi şərhçi Sərkis Arsruni yazıb.

**Lakin məqalə müəllifinə görə, 9 dekabr parlament seçkiləri artıq dönüş nöqtəsi olub:** "Ona görə ki, siyasi arenadan köhnə sistemi restavrasiya eləmək istəyənlər uzaqlaşdırılıb və zaman artıq Nikol Paşinyanın və onun hökumətinin əleyhinə işləyir. Çünki "qaralar" daha siyasi faktor deyil və onlara qarşı kontur-təbliğat inqilab komandasına çətin ki, dividentlər gətirsin. Tamaşa mərhələsi öz aktuallığını itirib və bundan sonra cəmiyyəti hay-küylü həbslər və ifşa hadisələri ilə konsolidasiya eləmək mümkün olmayacaq. Şərti desək, xalqı çörəklə təmin eləmək, Paşinyanın öz sözləri ilə desək, "iqtisadi inqilab" zamanı yetişib. Əhali öz həyatının keyfiyyətinin yaxşılaşması, iqtisadi inkişaf istiqamətində hökumətdən konkret nəticələr gözləyir".

Erməni KİV-ində yeni hökumətin iş qabiliyyətli olmasına şübhə də yer alır. "Ancaq yeni parlamentin ilk iclasları göstərdi ki, inqilabi blok heç də kompakt, zəruri keyfiyyətlərə malik siyasi komanda deyil - hərçənd bu, hətta parlament seçkilərinədək də görünürdü: kadr siyasəti Nikol Paşinyanın "Axilles dabanı"na çevrilib", - deyə məqalə müəllifi təəssüflə qeyd edib.

**Bundan daha mühüm məqam, nəticə kimi isə o, ötən aylar ərzində Nikol Paşnyanın ölkədə effektiv və işlək sistem yaratmağa nail ola bilməməsini göstərir.** "Belə görünür, inqilab sonrası ilk hökumətin gələcəklə bağlı dəqiq ifadə olunmuş yanaşması da yoxdur. Parlament seçkiləri hakimiyyətə legitimlik verdi, siyasi keyfiyyət yox. Və dünənki (srağagünkü - "YM") təzədən təyinatdan (Paşinyanın ikinci dəfə baş nazir təyin edilməsi nəzərdə tutulur - "YM") zaman açıq-aşkar Paşinyan və kabinetinin əleyhinə işləyir", - deyə məqalədə xəbərdarlıq edilir.

*****

Son günlər Ermənistandan gələn xəbərlər məqalədəki ovqatı bir daha təsdiqləyir. Ölkənin ayrı-ayrı yerlərində sosial-iqtisadi tələblər, bağlanan iş yerləri ilə bağlı başlayan etirazlar hələ ki siyasi tələblərlə müşayiət olunmasa da, görünən odur ki, Ermənistanda yeni narazı təbəqə yetişir. Bu isə həmin təbəqədən siyasi məqsəd üçün istifadə edəcək yeni siyasi qüvvənin - yeni müxalifətin meydana çıxmasını istisna eləmir.

Əlbəttə ki, çox şey Paşinyan və komandasının yaxın aylarda iqtisadi sferalarda, sosial bərabərlik sahəsində yaxşıya doğru nə dərəcədə inqilabi dəyişikliklər edə biləcəyindən asılı olacaq. Bu isə hər şeydən öncə ölkədə düzgün və işlək iqtisadi münasibətlər sistemi qurmaqdan, dərin islahatları reallaşdırmaq və böyük xarici sərmayəni cəlb eləmək bacarığından asılı olacaq.

Əksər təhlilçilərə görə, Ermənistan ağır blokada rejimində və Rusiyadan güclü siyasi-hərbi, iqtisadi-energetik asılılıqda qaldıqca, Dağlıq Qarabağ məsələsində irəliləyiş olmayınca bu dəfələrə çatmaq mümkün olmayacaq. Xarici siyasət isə bir qayda olaraq, daxili siyasətin davamı sayılır.

**Məsələn, öncələrdə yazdığımız kimi, Azərbaycan Gürcüstan kimi Ermənistana da ucuz qaz verə bilər. Bir şərtlə. Onu son olaraq, Azərbaycan prezidenti İlham Əliyev xalqa Yeni il təbrikində belə ifadə edib:** "Mövcud ağır, böhranlı vəziyyətdə Ermənistanın yalnız bir çıxış yolu var: Azərbaycanla münasibətləri normallaşdırmaq. Biz buna hazırıq. Ancaq bunun üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən çıxarılmalıdır".

Necə deyərlər, "top" Ermənistanın meydanındadır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# "Azərsilah" ASC-nin yaradılması qərarı təqdir olundu-ekspertlərdən reaksiyalar

**Prezident İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılmasına dair fərman imzalayıb. Fərmana əsasən, Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC yaradılır.**





**Elman Məmmədov:** ""Azərsilah" ölkəmizin müdafiə qüdrətinin güclənməsi üçün daha geniş imkanlara malik olacaq"

**Şair Ramaldanov:** "Artıq 10-dan yuxarı dövlətlə silah satışı ilə bağlı müqaviləmiz var"

Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən - Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirəcək. Qeyd edək ki, Müdafiə Sənayesi Nazirliyinin tabeliyində 30-dan yuxarı zavod fəaliyyət göstərirdi. Həmin zavodlarda Azərbaycanın daxili istehsalı, həmçinin xaricə satış məqsədilə müxtəlif çeşiddə hərbi ləvazimatlar, silah-sursatlar istehsal edilirdi. Artıq Azərbaycanın silahlarının sorağı müxtəlif ölkələrdə keçirilən beynəlxalq sərgilərdən gəlir və sifarişlərin miqyası artır. Eyni zamanda torpaqlarımızın işğalda olması ölkəmizin müasir silah-sursat, həmçinin hərbi texnika istehsalını da zəruri edir ki, bu istiqamətdə təcrübəsi olan ölkələrlə əməkdaşlıq imkanları da genişlənir.

**Sabiq maliyyə naziri Fikrət Yusifov "Yeni Müsavat"a dedi ki, bu fərmanın girişində qəbulunu zəruri edən səbəblər kifayət qədər dolğun şərh edilib və əsaslandırılıb. Eks-nazir deyir ki, biz bu addımı atmaqla və həm də ən müasir silahların istehsalını özümüzdə təşkil etməklə ilk növbədə düşmənə imkanlarımızı və gücümüzü göstəririk:** "Silah istehsal edən ölkənin digər ölkələrdən üstünlüyü odur ki, o heç vaxt başqasından silah almaq asılılığı durumunda qalmır. Digər tərəfdən, bu silahların istehsalının yüksək səviyyədə təşkil edilməsi hərbi məhsulların dünya silah bazarına çıxarılması deməkdir. Beləliklə, Azərbaycan neftlə bağlı olmayan və ölkəyə valyuta gəlirləri gətirən daha bir mənbə əldə etmiş olur. Niyə də olmasın?"

**F.Yusifov hesab edir ki, Azərbaycanın buna həm haqqı çatır və həm də onun bu işi ən yüksək səviyyədə təşkil edə bilmək üçün maliyyə imkanları başqa ölkələrdən fərqli olaraq daha böyükdür:** "Müdafiə Sənayesi Nazirliyinin "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinə çevrilməsi də tam məntiqidir. Bu işlə səhmdar cəmiyyətin məşğul olması daha düzgündür. Çünki ortada həm də silah satışı məsələsi var. Nazirlik kimi fəaliyyət göstərən bir qurumun bu işlə məşğul olması bir qədər uyğun görünmür. Bu addım atılarkən başqa ölkələrdəki analoji təcrübənin də öyrənildiyi heç şübhəsizdir".

**Deputat, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elman Məmmədov isə "Yeni Müsavat"a dedi ki, atılan addımlar növbəti struktur islahatlarının başlanğıcıdır:** "Məncə, prezidentin fərmanı bu sahənin daha operativ idarə olunmasına, daha ciddi fəaliyyət göstərməsinə səbəb olacaq. Bəlkə də mən yanıla bilərəm, amma silah-sursat məsələsində dünyada qəbul olunmuş qaydalar, konvensiyalar, əhali sayına görə ölkələrin kvotaları var. Təbii ki, nazirlik səviyyəsində olanda dövlət, hökumət adı gedir. Lakin ASC olduqda bu istiqamətdə daha geniş əl-qol açmaq imkanı yaranır. Odur ki, bu, çox uğurlu islahatdır. "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti ölkəmizin müdafiə qüdrətinin güclənməsi üçün daha geniş imkanlara malik olan bir qurum kimi fəaliyyət göstərəcək". E.Məmmədov silah istehsalı, satış, idxal-ixrac məsələlərində də yeni imkanların yaranacağını bildirdi: "Nazirliklər üzərində müəyyən beynəlxalq təşkilatların nəzarəti olur. Amma bundan sonra daha əlverişli vəziyyət yaranacaq. Həm də bu kimi islahatlar nəticəsində dövlətin yükünün azalacağını da qeyd etməliyik".

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov da prezident fərmanını təqdir etdi:** "Dünya təcrübəsində bütün silah istehsal edən qurumlar işini bu formada qurur. Bizdə də nazirlik səhmdar cəmiyyətə çevrildi. Səhmdar cəmiyyət daha sərbəst funksiyaları olan qurumdur. Həmçinin o, daha çevik fəaliyyət göstərmək imkanındadır. Bu halda bürokratik əngəllər aradan götürülür. Beynəlxalq qurumlara çıxış, qərarların qəbulu, hansısa elmi tədqiqat işlərini birgə aparmaq baxımından çox mühüm addımdır. Bütün bunları səhmdar cəmiyyət içində məsləhətlə etmək olar. Həmçinin investisiyalar cəlb etmək baxımından da önəmi var. Bütün bunları nəzərə alaraq səhmdar cəmiyyətin yaradılmasını təqdir etmək lazımdır". Ş.Ramaldanov dedi ki, Azərbaycan artıq silah istehsalçısına çevrilib və silah ixrac edir: "Artıq 10-dan yuxarı dövlətlə silah satışı ilə bağlı müqaviləmiz var".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**



# Vyana merinin gözəl təklifi

Samir SARI

**Dağılmaqda olan Almaniyanın kiçik qardaşı Avstriyadan maraqlı bir xəbər var. (Çoxunuz Avstraliyanın da İngiltərənin balaca bacısı olduğunu bilirsiniz, amma bu yazıda söhbət ondan getmir - bunu ona görə yazdım ki, hələ də Avstriya ilə Avstraliyanı qarışdıranlar var).**

Bu günlərdə Avstriyanın paytaxtı Vyananın (oxumuş adamlar təşər-təşər Vena deyir - guya belə deyəndə daha kübar görünürlər) meri Mixael Ludviq deyib ki, Vyanada hər cür silah gəzdirmək qadağan olunmalıdır.

Düzdür, indinin özündə şəhərin bəzi ərazilərində silah gəzdirilməsi qanunla qadağandır, amma şəhər meri bunu yetərli saymır, deyir ki, bu şəhərin bütün ərazisinə şamil olunmalıdır.

Düz fikirdir. Özümüzdən götürək, necə ola bilər ki, Yasamalda silah gəzdirməyə icazə verilsin, amma Papanində verilməsin. Eyni camaat deyilikmi? İndi Binəqədi uşağı cibinin bıçağını Bayıla gedəndə dostuna verməlidir ki, al, saxla, axşam qayıdanda götürəcəm?

Ona görə də Mixael müəllim hesab edir ki, qanun şəhər sakinlərinin hamısına aid olunmalıdır. Belə daha ədalətli olar. Yoxsa Vyanının silah gəzdirməyə icazəsi olan çayqırağı məhəlləsi ilə silah gəzdirməsi yasaq edilmiş kralsevən məhəlləsinin uşaqlarının sözü çəpləşsə və aralarında bıçaqlaşma düşsə, necə olar? Bir tərəf silahlı, o biri tərəf əliyalın. Düz gəlməz.

Mer də bunları nəzərə alıb. Onun verdiyi təklifə görə, odlu silahlarla yanaşı, soyuq silahlar, eləcə də insanların həyatına təhlükə törədə bilən bütün əşyaların, hətta adi cib bıçaqlarının gəzdirilməsi də qadağan edilməlidir. Yəni heç kəs üstündə beşbarmaq, velosiped zənciri, vintaçan da gəzdirməməlidir.

Ağıllı mer santexnikləri də nəzərə alıb. Peşə fəaliyyəti ilə əlaqədar və ya xüsusi icazə sənədi olan şəxslər (yəni çantalarında qaz açarı, ling və s. bu kimi ağır və küt əşyalar daşıyanlar) bu qaydalardan qıraqda qala bilərlər.

Yəqin ki, merin təklif etdiyi qadağa maşınının baqajında beysbol zopası gəzdirənlərə də aid olacaq. Baxmayın, zopa da silahdır. Elə ölkələr (məsələn, Rusiya, biz, Qazaxıstan) var ki, bir nəfər də olsun beysbolçusu yoxdur, amma beysbol zopasının satışına görə ABŞ-ı ötüb keçiblər. Niyə? Çünki adamlar o zopanı beysbol oynamaq üçün almırlar, dalaşanda istifadə etmək üçün alırlar.

Bu xüsusdakı qanunvericilik baxımından bizdə vəziyyət ürəkaçandır. Hələ sovet dövründən adamların hər cür silah gəzdirməsi qadağandır. Üstündə, maşınında silah tutulan adam əlli-ayaqlı gedir, ya da bir xeyli ziyana düşür.

Ancaq baxaq, görək, bu qadağanın, "ilişəndə dolaşma təhlükəsi"nin insanlara, xüsusilə də gənclərə təsiri varmı? Yoxdur. N qədər qanacaqsız gənc var ki, ciblərində soyuq silah gəzdirirlər. Hələ yaxşı ki, bizdə Türkiyədəki kimi üstlərində kütləvi şəkildə tapança gəzdirənlər yoxdur. Amma vallahi, açıq satışda olsa, qanun da yol versə, bizimkilər tapançasız evdən çıxmazlar.

Özü də ən pisi budur ki, bu kafayla biz o tapançanı hər gün olmasa da, günaşırı işlədərik. Hər saat atəş açmarıq, amma yeri gələndə, yolda-rizdə kiminsə başına dirəyər, üreyinə tuşlayarıq və qışqırarıq: "Alçaq, görürsən, siqnal verirəm, niyə yol vermirsən, indi sıxım təpənə?" (Yadınızda olar, 3-4 il əvvəl hərdən şəhərdə bu kimi əhvalatlar olurdu - Robert Prosineçkinin millinin baş məşqçisi olduğu vaxtlarda).

Məndən olsa, üstündə silah tutulan gənclər bağışlanmaz. Çünki onlar potensial canidirlər, qatildirlər, otluqda qıvrılıb yatmış ilandırlar, kimsə bilmədən quyruğunu tapdasa, qanı və canı gedəcək.

Hətta yaxşı olar ki, polislər arada hansısa şəhərdə gənclər arasında xüsusi reydlər aparsınlar, adam seçmə əsasında gəncləri saxlayıb, üstlərinə baxış keçirsinlər. Əmin edirəm ki, hər beşindən üçünün üstündən bıçaq çıxacaq. Lap beş gəncdən birinin üstündən bıçaq çıxsa belə, bu, çoxdur.

Heç son vaxtlar görmüsünüzmü, gənclər dalaşalar (əlbəyaxa dalaşmaq gəncliyə xas xüsusiyyətdir - necə ki, savannada təkələr vaxtaşırı buynuzlaşırlar) və adama bir neçə şillə-təpik yedikdən sonra aralaşıb gedələr. Yox, mütləq əl cibə atılır, soyuq silah çıxır, isti qan axır.

Bu üzdəndir ki, jurnalistlər saytlara "bıçaqlandı" feilli xəbər qoymaqdan bezar olublar. Ona görə də bu məsələdə Mixael Lüdviq kimi sərt olmaq lazımdır.

# "Hell" enerji içkisinin qiyməti niyə ucuzlaşdı?

## Bazarı zəifləyən şirkətin bahalaşma manipulyasiyası bumeranq effekti verdi; bu içkilər böyrək çatışmazlığı və infarkt yaradırmış...

**Azərbaycanda energetik içkilərin qiyməti yenidən əvvəlki məbləğə qaytarılıb. "Hell" və "Bizon" adlı energetik içkilər hazırda köhnə qiymətlərlə satışdadır.**

Çünki rəqiblər, xüsusilə "Bizon" qiyməti daha az artırmışdı və bu da satışa təsir göstərirdi. "Hell" məcbur oldu ki, qiyməti əvvəlki səviyyəyə salsın.

Fevraldan qiymət artımı onsuz da olacaq. Çünki aksiz vergisinin tutulmasına başlanacaq. Odur ki, 2 manata qaldırılmış "Hell" əvvəlki qiymətinə - 1 manata salınıb.

"Hell Energy"nin bu məhsulları paylayan piar meneceri Müşviq İskəndərov feysbukda status yazmışdı ki, yeni aksiz vergisi tətbiqinə başlamadan təxirə salındığı üçün qaldırdığımız qiyməti aşağı saldıq.

REAL TV əməkdaşı Mahir Məmmədli ondan soruşub ki, idxal xərciniz artmadan qiyməti niyə artırdınız: "Axı xərciniz hələ artmamışdı?! Amma sualımı sildi. Fürsətcil şirkətlərə hər zaman sözünüzü birbaşa deyin, onlardan imtina edin. Gördülər ki, bazar öldü, qiyməti saldılar və müştərilərə minnət yükləməyə başladılar. Mən də bu günə qədər "Hell" alıcısı idim".

**Almaniyada həkim işləyən Rəşad Museyibzadə yazıb ki, enerji içkilərinin tərkibində yüksək miqdarda kofein var, bu isə insanı bir müddət gümrah və diqqəti daha yaxşı toplamasına kömək edir:** "Bu, sadəcə, müsbət tərəfidir.

Mənfi tərəfləri isə həddən artıqdır. Enerji içkiləri hamilə qadınlara, uşaqlara və yetkinlik yaşına çatmayan (16-18 yaş) gənclərə məsləhət görülmür.

Hətta bir neçə ölkədə uşaqlara və yetkinlik yaşına çatmayan gənclərə enerji içkilərinin satışı qadağandır. Almaniyada da müxalif partiyalardan biri bu qanunu təklif edib.

Enerji içkilərinin zərərli tərəfləri: yuxu pozuqluğu, əsəb sisteminin pozuqluğu, baş ağrısı, mədə-bağırsaq sisteminin xəstəlikləridir".

Onun dediyinə görə, bu içkilərin asılılıq yaratması da mənfi tərəflərindən biridir: "Başlarda bunu hiss etmək olmur, amma bir müddət sonra gün ərzində 3-4 enerjisi içkisi içdiyinizi fərq edəcəksiniz.

Enerji içkilərinin bir zərərli tərəfi də orqanizmdə suyun normadan artıq itirilməsinə səbəb olur. Susuzluq zamanı istifadə olunan enerji içkisi həm orqanizmə su tələbini azaldır, həm də əlavə suyun itirilməsinə səbəb olur.




İnsan isə gün ərzində 2-3 litr su qəbul etməlidir. Enerji içkilərinin spirtlə birlikdə istifadəsi də məsləhət görülmür. Xüsusilə idmanla məşğul olan şəxslər, idmandan sonra enerji içkilərindən uzaq dursalar yaxşı olar.

Çünki bu içkilərin istifadəsi ürəyin ritm pozuqluğuna, böyrək çatışmazlığına, infarkt kimi xəstəliklərə səbəb olur. Sözsüz ki, heç kimin içdiyinə və yediyinə qarışmaq niyyətimiz yoxdur.

Amma uşaqlarımızı, gələcək nəsilləri qorumaq lazımdır. Xüsusilə Bakıda onsuz da yaşıllıq yoxdur, ürək xəstəliklərinin sayı artıb, bir də özünüzə bu içkilərlə ziyan vurmayın".

**R.Museyibzadə bildirib ki, azərbaycanlıların ən böyük düşmənlərindən biri "Hell" içkisi və onun reklamını edənlərdir:** "İçməyin, özünüz cəhənnəm, gələcək nəsillərə yazığınız gəlsin".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Mərhum nazirin oğlunun restoranında işıq qalmaqalı

## Nərimanov Rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi vəzifəsini niyə itirdi?

**Mərhum müdafiə sənayesi naziri Yavər Camalovun ailə biznes şəbəkəsinə daxil olan "Kral" şadlıq sarayında elektrik enerjisinin böyük miqyasda talanması faktının üzə çıxmasından sonra şadlıq sarayının yerləşdiyi Nərimanov rayonu üzrə Enerji Təchizatı və Satışı İdarəsinin (ETSİ) rəisi Həsən Həsənov, eləcə də bu rayonun elektrik şəbəkəsinin rəisi Səməd Mustafayev işdə yol verdikləri nöqsanlara görə vəzifələrindən kənarlaşdırılıblar. Bu barədə "Report" bildirir.**



İşdən çıxarılan H.Həsənovun S.Mustafayevin yerinə, yəni aşağı vəzifəyə təyin edildiyi bildirilir.

"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevin bildirdiyinə görə, baxış zamanı aydın olub ki, şadlıq evini qidalandıran 6 kV-luq kabel xətti binanın zirzəmisinə daxil olur və sayğacdan əvvəl xüsusi quraşdırılmış sxem vasitəsilə sayğacdan kənar 3 ədəd 160 kVa gücündə transformator qoşularaq elektrik enerjisi talan edilir. Bu faktın üzə çıxmasından sonra "Kral" şadlıq evinin elektrik enerjisi təchizatı tam dayandırılıb.

Azərişıq ASC-nin Nərimanov rayonu üzrə Enerji Təchizatı və Satışı İdarəsinin və elektrik şəbəkəsinin rəhbərinin vəzifəsindən kənarlaşdırılmasının "Kral" şadlıq sarayının elektrik enerjisi təchizatının dayandırılması ilə əlaqəsi yoxdur. Həmin rəhbər şəxslər işlərində qeydə alınan nöqsanlara görə bir ay bundan əvvəl vəzifələrindən uzaqlaşdırılıblar.

Bu sözləri axar.az-a Tanrıverdi Mustafayev deyib.

T.Mustafayev bildirib ki, hazırda sözügedən rayonda yoxlamalar gedir. Vəzifəli şəxslər də yoxlamalar əsasında qeydə alınan nöqsanlara görə işdən çıxarılıblar. T.Mustafayev həmçinin bildirib ki, "Kral" şadlıq evinə verilən elektrik enerjisinin kəsilməsi ilə bağlı məlumatı saytlara o verməyib: **"Bu məlumat Azərişıq ASC tərəfindən yayılıb. Sadəcə, saytlar mənim adımdan məlumat kimi veriblər. Dediyim kimi, hazırda sözügedən rayonda yoxlamalar gedir. Nərimanov rayonu ərazisində yerləşən "Kral" şadlıq evində "Elektrik Enerjisindən istifadə Qaydaları"na uyğun baxış keçiriblər. İndi şadlıq evinin elektrik enerjisinin olub-olmaması ilə bağlı bir söz deyə bilmərəm. Bizim qurum yaydığı məlumatda bildirib ki, onların işığı kəsilib. Əgər onlar deyirsə bizim işığımız kəsilməyib, mən bununla bağlı bir söz deyə bilmərəm".**

"Kral" şadlıq sarayının mərhum müdafiə sənayesi naziri Yavər Camalovun ailə biznes şəbəkəsinə daxil olduğu deyilir. Həmin şadlıq sarayını və mərhum nazirin digər çoxsaylı kommersiya obyektlərini hazırda onun oğlu idarə edir.

❑ **ELŞƏN**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 11 (7181) 15 yanvar 2019

**Bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyan 2019-cu il üçün ilk dəfə bir araya gələcəklər. Parisdə keçirilməsi nəzərdə tutulan görüşdə ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT sədrinin şəxsi nümayəndəsi Anji Kasprşik də iştirak edəcəklər. Bundan qabaq XİN başçıları sonuncu dəfə ötən ilin dekabrında İtaliyanın Milan şəhərində görüşmüşdülər.**






# Qarabağ danışıqlarında hərbi güc amili önə keçə bilər

## Azərbaycan bu il öz ordusunun döyüş qabiliyyətinə xüsusi diqqət ayıracaq; bu gün Parisdə başlayan danışıqlardan və işğalçı ölkədə rəsmiləşən hakimiyyət dəyişikliyindən gözləntilər...

Bir sıra siyasi analitiklər bu görüşdən də nizamlama prosesinə təkan verəcək nəticə gözləmirlər. Hərgah, təzə illə bağlı ümidverici notlar da səslənməkdədir. Bəzi siyasi müşahidəçilərə görə, Ermənistandakı yeni hökumət, baş nazir Nikol Paşinyan, hər halda, öz legitimliyindən istifadə edib problemin həlli yönündə hansısa pozitiv mövqeyə köklənə də bilər. Buna kövrək əsaslardan biri kimi, Azərbaycan prezidenti İlham Əliyevlə Nikol Paşinyan arasında keçən il Düşənbədə əldə olunan şifahi anlaşma da göstərilir.

*****

Bir şey dəqiqdir ki, sülh danışıqlarının bu il də uzanması münaqişə zonasında müharibə riskini heç vaxt olmadığı qədər artıracaq. Nəticəsiz danışıqlar fonunda isə əlbəttə ki, hərbi amilin əhəmiyyəti xeyli artmış olur. O səbəbdən ərazisinin 20%-i işğal altında olan Azərbaycan bu il də öz ordusunun döyüş qabiliyyətini artırmağı xüsusi diqqətdə saxlayacaq. Söhbət həm xaricdən müasir hərbi sistemlərin alınmasından, həm də yerli hərbi sənayeni inkişaf etdirməkdən gedir.

Azərbaycan özünün hərbi qüdrətini və döyüş potensialını artırmaqda davam edəcək. Bu yöndə tərəfdaşlıq etdiyimiz dövlətlər sırasında sözsüz ki, qardaş Türkiyə ön sıralarda yer tutur. Bəllidir ki, Azərbaycanın silah-sursat arsenalında Türkiyə istehsalı olan və ya iki qardaş ölkənin birgə istehsal elədiyi silahların və sistemlərin miqdarı ilbəil artır.

Yeri gəlmişkən, bu günlərdə Türkiyədə səfərdə olan Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin nümayəndə heyəti qardaş ölkənin müdafiə sənayesi üzrə aparıcı şirkətlərindən olan “Aselsan”ı ziyarət edib. Nazirlikdən verilən məlumata görə, nümayəndə heyətinin “Aselsan” şirkətinin rəhbərliyi ilə görüşü təşkil olunub.

Görüşdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələri ilə “Aselsan” şirkəti arasında icra olunmuş layihələrin əhəmiyyətindən danışılıb və yeni layihələrin icrasının önəmliliyi vurğulanıb. Eyni zamanda uzun müddətdir müzakirəsi aparılan müxtəlif növ rabitə vasitələrinin birgə istehsalının təşkilini nəzərdə tutan layihə üzrə qarşılıqlı razılıq əldə edilib və donda nazirliyin “Cihaz” İstehsalat Birliyi ilə “Aselsan” şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair müqavilə imzalanıb.

*****

İsraillə də hərbi-texniki sahədə əlaqələrin daha da inkişaf edəcəyi gözlənilir. Çünki İsrail dünyada ən qabaqcıl hərbi texnologiyalara malik bir neçə ölkədən biridir. Azərbaycan-İsrail hərbi əməkdaşlığı isə təbii ki, ən çox Ermənistanı narahat edir. Təsadüfi deyil ki, işğalçı ölkənin yeni hakimiyyəti də bu vəziyyəti öz xeyrinə dəyişmək üçün cəhdlər eləməyə başlayıb.

Məsələn, Ermənistanın xarici işlər naziri Zoqrab Mnatasakanyan İsraildə nəşr olunan “Yerusəlim Post” qəzetinə müsahibəsində İrəvanda İsrailin diplomatik nümayəndəliyinin açılacağına ümid etdiyini bildirib. Bu müsahibədən sonra isə İsrail-Azərbaycan münasibətləri fonunda Təl-Əviv və İrəvan arasındakı soyuq münasibətlər mövzusu yenidən erməni KİV-də müzakirəyə çıxarılıb.

“Asparez” qəzeti Ermənistanın yeni hakimiyyətinin İsraillə münasibətləri qaydasına salmağa çalışdığını qeyd edir. Lakin erməni nəşri İsrail və Ermənistan arasındakı münasibətlərin heç vaxt İsrail-Azərbaycan münasibətləri səviyyəsinə qalxa bilməyəcəyini də vurğulayır.

**“Asparez” İsraili Ermənistan üçün itirilmiş “böyük bir siyasi meydan” adlandırır və bu meydanda onun Azərbaycana birdəfəlik uduzduğunu yazır:** “İrəvanın İsraillə münasibətləri qaydasına salmaq axtarışlarını Bakı və Təl-Əviv arasındakı yaxınlaşma baxımından qiymətləndirmək lazımdır. İsrail Azərbaycanı Ermənistanla müharibədə dəstəkləyən və silahlandıran ölkədir. İsrailli mütəxəssislər Azərbaycan hərbçilərinə təlim keçirlər. Habelə ölkələr arasında milyardlarla dollar dəyərində hərbi müqavilələr imzalanıb. Siyasi baxımdan da İsrail təktərəfli formada Azərbaycanın maraqlarını ifadə edən siyasət yürüdür”.

**Erməni nəşri Qarabağ münaqişəsində də vəziyyətin eyni olduğunu qeyd edir:** “İsrail bu məsələdə Türkiyə ilə birlikdə Azərbaycanla hərəkət edir. İki ölkənin cəmiyyətləri də münasibətlərin dərinləşməsinə dəstək verir. Beləliklə, Azərbaycanda çoxlu sayda İsrail təşkilatları, məktəbləri, sinaqoqları və qəzetləri fəaliyyət göstərir”.

**“Asparez” daha sonra İsrail-Ermənistan münasibətlərinin normallaşacağına dair rəsmi İrəvanın ümidsiz olduğunu vurğulayır.** “Baş verənlər fonunda, Ermənistan-İsrail münasibətlərində irəliləyişin olacağı inandırıcı görünmür. İqtisadi və digər sahələrdə müəyyən dəyişiklik ola bilər, amma bu münasibətlər heç vaxt İsrail-Azərbaycan münasibətləri səviyyəsinə çatmayacaq”, - deyə erməni nəşri bədbinliklə əlavə edir.

*****

Sözsüz ki, müsəlman dünyasının önəmli dövlətlərindən biri kimi Azərbaycanla sıx əlaqələr İsrail dövlətinin də köklü maraqlarına uyğundur. Lakin onun işğalçı ölkə ilə əlaqələrinin alınmamasında Azərbaycanın məxsusi payı var və bu, rəsmi Bakının xarici siyasət uğurlarından sayıla bilər. Eyni zamanda Ermənistanın Rusiyadan vassal asılılığı səbəb kimi qeyd olunmalıdır. Rusiya isə təcavüzkar dövlət üçün çox şey deməkdir. Bu mənada Nikol Paşinyanın Moskva qarşısında öz sələflərindən ciddi şəkildə fərqlənən siyasət yürüdəcəyinə inananlar çoxluq təşkil eləmir.

**“Mənim fikrimcə, Paşinyan Ermənistanı əvvəlki Ermənistandan heç nə ilə fərqlənməyəcək”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri teleqraf.com-a Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu Ermənistanın yeni tərkibdə parlamentinin açılışı və Paşinyanın baş nazir seçilməsini şərh edərkən deyib.**

**Partiya sədri deyib ki, Ermənistandan heç nə gözləmir:** “Əsas məsələ odur ki, müasir Ermənistan müstəqil siyasət aparmır. Bu ən vacibidir. Ermənistanın taleyini yeni erməni hakimiyyəti deyil, Rusiya həll edir. Rusiyanın da regionda siyasəti, maraqları bizə məlumdur. Aydın məsələdir ki, Rusiya Ermənistanı son ana qədər yanında saxlamaq, təsir dairəsindən buraxmamaq üçün Dağlıq Qarabağ münaqişəsinin həlli prosesini yubadacaq. Paşinyan layihəsi isə sadəcə olaraq Sərkisyan rejimindən bezən ermənilərin köpünü almaq üçün ortaya atılmışdı. Və hesab edirəm ki, Paşinyanın ortaya çıxarılması ilə ermənilərin köpü müəyyən qədər alındı. Bu mənada Ermənistandan müsbət nəsə gözləməyə dəyməz”.

**Siyasətçinin sözlərinə görə, əgər yeni erməni hökuməti müstəqil siyasət aparmaq haqqında düşünərsə, yalnız bu zaman nəsə demək mümkündür:** “İndilikdə biz, sadəcə olaraq, Ermənistanda hakimiyyət dəyişikliyi və inqilabi prosesin son mərhələyə daxil olduğunu deyə bilərik”.

Sərdar Cəlaloğlu hesab edir ki, Ermənistanın müstəqil dövlət olması haqda iddialar yanlış düşüncədir. Onun qənaətincə, Nikol Paşinyanın hakimiyyətə gəlişinin rəsmiləşdirilməsi Ermənistan daxilində xüsusi uğurlara səbəb ola bilməz: “Sadəcə, Ermənistan hakimiyyətini bir klan tərk edir və onu başqa bir klan əvəzləyir. Beləcə, Sərkisyan vaxtından qalan komanda, onun yerli idarələrdə mövqe tutan kadrları təmizlənəcək, əvəzində yeni simalar ortaya çıxacaq. Ancaq erməni xalqının yeni hökumətdən gözləntisi onun həyat şəraitinin yaxşılaşdırılmasıdır. Bunun həlli isə real görünmür”.

Hər halda, bunlar siyasi təxminlərdir. Paşinyan iqtidarının istər daxili siyasətdə, istərsə də xarici siyasətdə və Dağlıq Qarabağ məsələsində nəyə qadir olduğuna isə yəqin ki, yaxın aylarda əminlik hasil olacaq...

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019

# Ali məktəblər birləşdirilə bilər-təkliflər

**Dövlət başçısı İlham Əliyevin Nazirlər Kabinetinin sonuncu iclasında struktur islahatları ilə bağlı verdiyi anons mətbuatda bu istiqamətdə müzakirələrin genişlənməsinə səbəb olub. Bir çox dövlət qurumlarının birləşdirilməsi və ya ləğvi ilə bağlı təkliflər səsləndirilir. Artıq dövlət tərəfindən bir neçə qurumun ləğvi ilə bağlı qərar verildi. Ekspertlər isə ölkədə fəaliyyət göstərən dövlət ali təhsil ocaqlarının da həddindən artıq çox sayda olduğunu və paralel olaraq eyni ixtisaslı kadrlar yetişdirdiyini bildirərək, bir neçəsinin birləşdirilməsini vacib hesab edirlər. Bu baxımdan islahatların bir qolunun da ali təhsil müəssisələri ilə bağlı olacağı gözlənilir.**

## Kamran Əsədov: "Texnologiya ilə Dövlət Neft və Sənaye universitetləri birləşdirilərək Sənaye Universiteti yaradıla bilər"



**Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa da "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, islahatların bir istiqamətini də təhsil sistemi təşkil etməlidir:** "Bu qədər ali məktəbin olmasına heç bir ehtiyac yoxdur. Onların çoxu ləğv olunmalı, böyük və müasir tələblərə cavab verən bir neçə universitet yaradılmalıdır. Məsələn, Bakı Dövlət Universitetinin ətrafında Milli Elmlər Akademiyasının bir neçə institutu yerləşir - Fizika İnstitutu, Qeyri-üzvi Kimya İnstitutu, Riyaziyyat, Yüksək Texnologiyalar İnstitutu və sair. Bu institutların hamısı Bakı Dövlət Universitetinə birləşdirilməklə, dünya səviyyəsinə çıxacaq elmi bazası olan universitet yaradılmalıdır. Bundan əlavə, hər nazirliyin, komitənin öz akademiyası var. Bu, nəyə lazımdır? Onların hamısı bir universitetdə birləşdirilməklə fakültəyə çevrilməlidir".

Fazil Mustafanın bu fikri təhsil ekspertləri tərəfindən də dəstəklənir.

**Təhsil eksperti Kamran Əsədov mövzu ilə bağlı "Yeni Müsavat"a danışarkən bildirdi ki, bu il bəzi dövlət ali təhsil müəssisələrinin birləşdirilməsini və ya ləğvini müşahidə edə biləri̇k:** "İlk növbədə qeyd edim ki, 2019-cu ildə bəzi dövlət ali təhsil müəssisələrinin birləşdirilməsi və ya ləğv olunması prosesinin baş verəcəyi istisna deyil. Çünki 50-dən çox ali təhsil müəssisəmiz tam şəkildə müasir standartlara cavab verən və əmək bazarının tələbini yerinə yetirən kadr hazırlığı həyata keçirə bilmir. Bir çox universitet dövlət büdcəsi üçün əlavə xərcdir, əlavə yükdür. Bir neçə il əvvəl Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə birləşdirilib. Həmçinin Müəllimlər İnstitutunun bir neçə filialları bağlanıb. Mingəçevir Müəllimlər İnstitutu ilə Mingəçevir Politexnik İnstitutu Mingəçevir Dövlət Universiteti adı altında birləşdirilib".

**Ekspertin sözlərinə görə, hazırda bir neçə dövlət ali təhsil ocağında, demək olar ki, eyni ixtisaslar mövcuddur:** "Düşünürəm ki, Azərbaycan Texnologiya Universiteti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti birləşdirilərək onların adı Sənaye Universiteti ola bilər. Azərbaycan Slavyan Universiteti ilə Azərbaycan Dillər Universitetinin birləşdirilməsi məqsədəuyğundur. Hər iki təhsil ocağında, demək olar ki, eyni ixtisaslar mövcuddur. Azərbaycan İncəsənət Universiteti ilə Azərbaycan Milli Konservatoriyasının birləşdirilməsinə də ehtiyac var".

**K.Əsədov həmçinin bildirdi ki, universitetlərin birləşdirilməsinin müsbət tərəfləri olduğu kimi, mənfi cəhətləri də var:** "Çünki XXI əsr informasiya-kommunikasiya texnologiyaları dövrüdür. Hazırkı zəmanə çeviklik və optimal idarəetmə tələb edir. İki universitet birləşdirilərsə, həmin təhsil ocağında oxuyan minlərlə tələbənin idarə olunması sual altında olacaq".

**Ekspert vurğuladı ki, əsasən uyğun ixtisaslı universitetlərin birləşdirilməsi vacibdir:** "İmkanların bir yerə toplanması, vahid strategiya ilə eyni istiqamətə yönəldilməsi baxımından bu birləşmə xeyirli ola bilər. Bundan başqa, onsuz da bu təhsil ocaqlarını bitirən gənclər nəticədə eyni peşənin sahibi olur. Azərbaycanda universitet yaratmaq təsəvvürü çox bəsit olub. Universitetləri valideynlərdən yığılan pulla açmaq olmaz. Belə universitetlər Avropaya inteqrasiya edə bilmir, beynəlxalq səviyyəyə çıxa bilmir və bilməyəcək".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**



# Həcc qiymətləri bahalaşdı

## Fevralın əvvəlinə qədər ziyarətlə bağlı Azərbaycanda sənəd qəbulunun elan ediləcəyi də nəzərdə tutulub

**Bu il Həcc ziyarəti qiymətləri bahalaşacaq. Bu barədə QMİ-dən "Report"a verilən məlumatda qeyd olunur. Məlumatda qeyd olunur ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndə heyəti Azərbaycandan builki Həcc ziyarətinin təşkili ilə bağlı Səudiyyə Ərəbistanı Krallığının Həcc Nazirliyinin dəvəti ilə bu ölkədə səfərdə olub. Səfər zamanı Səudiyyə tərəfinin ziyarətlə bağlı builki şərtləri öyrənilib, zəvvarların qalacağı hotellər müəyyənləşdirilib.**

O da bildirilir ki, Həcc qiymətləri bu il ötən ilə nisbətdə 50 və ya 100 ABŞ dolları daha baha olacaq. Ziyarət bu il də keçənilki kimi iki variantda (VİP və sadə) deyil, yalnız bir variantda olacaq. Fevralın əvvəlinə qədər ziyarətlə bağlı Azərbaycanda sənəd qəbulunun elan ediləcəyi də nəzərdə tutulub. Hazırda səfərdən qayıdan nümayəndə heyətinin təqdimatı əsasında idarədə builki qiymətlər, ayrılacaq kvota və digər şərtlər hesablanır.

Qeyd edək ki, ötən il Azərbaycanda Həcc ziyarətinə səfər xərci 4150 ABŞ dolları olub, ümumilikdə isə 1440 nəfər ziyarət edib. Hələlik builki kvota müəyyən olunmasa da, qiymətlərin bahalaşması ümumilikdə zəvvar sayına təsir edə bilər.

Xatırladaq ki, Azərbaycanda Həcc kvotası iki dəfə azaldılıb. Məsələ ondadır ki, ümumi qəbul olunmuş qaydaya əsasən dünyada Həcc ziyarəti kvotası kimi müsəlman ölkələrində hər 1000 nəfərə bir nəfə zəvvar olmaqla hesablanır. Məsələn, qardaş ölkə Türkiyədə ötən il ümumilikdə 2,1 milyon insan Həcc ziyarəti üçün müraciət edib. Püşkatma nəticəsində 80 min Türkiyə vətəndaşı Həcc ziyarətinə getmək haqqı qazanıb. Türkiyədən hər il 300 mindən çox insan Həcc üçün müraciət edir və əvvəlki illərdə edilən müraciətlərlə birlikdə püşkatma nəticəsində kvotada nəzərdə tutulan qədər Həcc zəvvarı seçilir. Türkiyədən ötən il 80 min nəfər, yəni ölkə əhalisinin hər 1000 nəfərinə bir adam ziyarətə gedib.

Bu qaydaya əsasən, Azərbaycandan təxminən 9-10 min nəfər arası insan Həcc ziyarətinə gedə bilər. Ancaq hazırda real olaraq ziyarətə gedənlərin sayı dəfələrlə azdır. Məsələ ondadır ki, Azərbaycanda ən kütləvi Həcc səfərləri 2009-cu ilə qədər olub. Həmin illərdə Azərbaycandan avtobus və təyyarə ilə ziyarətlər təşkil olunub və bunu yalnız QMİ deyil, eyni zamanda müstəqil şirkətlər həyata keçirib. Bu zaman 6 min nəfərə yaxın insan Həcc ziyarətinə gedib. Lakin 2009-cu ilin yayında QMİ elan edib ki, kvota 2 dəfə endirilərək 2 min nəfər müəyyən olunub.

Azərbaycanda sonrakı illərdə müəyyən artım olub və həttə 3,6 min nəfərə qədər zəvvar Həcc ziyarətinə gedib. Lakin 2 il əvvəl kvota növbəti dəfə azaldılıb və 2000 nəfər nəzərdə tutulan say sonradan 900-ə endirilib. Buna səbəb olaraq Səudiyyə Ərəbistanı Krallığı Həcc Nazirliyinin bütün ölkələr üzrə yeni kvota müəyyən etməsi göstərilib.

Qeyd edək ki, əvvəlki illərdə QMİ Həcc ziyarətində bahalaşmanı adətən Səudiyyə Ərəbistanında bahalaşma, hotel kirayəsi qiymətinin artması və digər hadisələrlə ilə izah edir. Bu məsrəflər dollarla ödəndiyi üçün QMİ də bir qayda olaraq hesablaşmanı, qiymətləri dollarla hesablayır. QMİ-nin elan etdiyi məlumatlara əsasən, bu məbləğə zəvvarların nəqliyyat, mehmanxana, viza xərcləri, torpaqbasdı vergisi, çadırların icarə haqqı daxildir.

Bundan başqa, son illərdə Həcc ziyarəti zamanı bir sıra yeniliklər tətbiq olunmağa başlayıb. Bunlara zəvvarların məcburi həyat sığortası, hotellərdə gündə isti yemək və qəlyanaltı daxil olmaqla 2 dəfə yemək, Mina və Ərəfatda isə qəlyanaltıların təklif olunması, habelə Müzdəlifə və Ərəfata zəvvarların dəmiryol qatarı ilə çatdırılması kimi xidmətlər daxildir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Ölkədə uşağın cinsiyyətini qabaqcadan öyrənmək qadağan edilir

## Qanun layihəsi artıq tam hazırdır

**Azərbaycanda uşağın cinsiyyətini öyrənmək rəsmən qadağan edilir. Modern.az-ın parlamentdən əldə etdiyi məlumata görə, bununla bağlı "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi "Milli Məclisin Səhiyyə komitəsinin 2019-cu il üzrə işlər planı"na daxil edilib.**

Qanun layihəsi artıq tam hazırdır. Sənəd komitə iclasında müzakirə edildikdən sonra Milli Məclisin 2019-cu il yaz sessiyasının plenar iclaslarının birində müzakirəyə çıxarılacaq.

"Reproduktiv sağlamlıq haqqında" yeni qanun layihəsinin 12-ci maddəsində (Sonsuzluğun müalicəsi hüququ) aşağıdakılar qeyd edilib:



Sonsuzluğun müalicəsi məqsədilə vətəndaşların:

1. Tətbiqi qadağan edilməyən, həmçinin beynəlxalq praktikada geniş istifadə edilən köməkçi reproduktiv texnologiyalardan istifadə etməklə sonsuzluğun bütün növlərinin müalicəsi hüququ;

2. Köməkçi reproduktiv texnologiyaların mahiyyəti, səmərəliliyi, onların tətbiqinin optimal müddəti, tibbi və hüquqi nəticələri, mümkün ağırlaşmalar, həmçinin sonsuzluğun müalicəsinin digər üsulları barədə informasiya əldə etmək hüququ vardır.

3. Cins ilə bağlı irsi xəstəliyin keçirilməsi ehtimalının olduğu hallar istisna olmaqla, köməkçi reproduktiv texnologiyaların tətbiqi zamanı uşağın cinsinin planlaşdırılmasına icazə verilmir.

Qanun layihəsində eyni zamanda cinsi mənsubiyyətə görə hamiləliyin süni pozulması (selektiv abort) qadağan olunur.

Bu, yeni hazırlanan "Reproduktiv sağlamlığın qorunması haqqında" qanun layihəsində əksini tapıb. Qanun layihəsinin 18-ci (Hamiləliyin süni pozulması) maddəsinə əsasən, hamiləliyin süni pozulması "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətlərdə həyata keçirilir. Cinslə bağlı irsi xəstəliklərin keçmə ehtimalı yüksək olduğu hallarda hamiləliyin süni pozulması ixtisaslı həkim-mütəxəssislərdən ibarət konsiliumun qərarı ilə həyata keçiriləcək.

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019

# "İcra başçısı Əziz Əzizovun adamları məndən 6 min manat rüşvət istəyir" - şikayət

**Aynur Yaqubova:** " Qoy hamı Əziz Əzizovun və onun rüşvətxor adamlarının mənim xəstə uşağımla başıma gətirdikləri bu bəladan xəbərdar olsun"





**Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi 10 saylı ünvanda yaşayan Yaqubova Aynur İsfəndiyar qızı Yasamal Rayon İcra Hakimiyyətindən şikayətçidir.**

Anadangəlmə qüsurlu oğlu ilə yaşayan A.Yaqubova uzun müddət pul toplayaraq evini artırmaq qərarına gəlib. Bütün müsibətlər də bundan sonra başlayıb. Şikayətçinin bildirdiyinə görə, evini ikinci mərtəbəsinə əlavə artırma etməyə başlayarkən yerli qurumların maneəsi ilə üzləşib: "Tikintiyə başlayan kimi ərazi üzrə 64 saylı Mənzil-Kommunal İstismar Sahəsinin (MİS) sədri Sədullan Abiyevin Kamran adlı köməkçisi gələrək icazə verilməsi üçün məndən 1000 manat aldı. 2 gün sonra Yasamal Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi Ümid Əsgərov gəldi. O da məndən tikili üçün pul istədi. Lakin ona pulumun olmadığını deyəndə tikiliyə icazə verməyəcəyini bildirdi. Mən də şikayətimə baxılması üçün Bakı Şəhər İcra Hakimiyyətində qəbulda oldum. Məndən evin sənədlərini istədilər. Evi anamın adından çıxardıb öz adıma keçirmək üçün möhlət istədim. Qüsurlu uşağımın da olduğunu bilib mənə icazə verdilər. Lakin həmin ərəfədə bacımın rəhmətə getməsi sənədləşmə işlərimin ləngiməsinə səbəb oldu. Sənədlərimi qaydaya salana kimi yağış yağdı, əzab-əziyyətlə alıb yığdığım tikinti materialları yararsız hala düşdü. Nəhayət, evimin çıxarış sənədini alandan sonra yenidən tikintiyə başladım.

Yasamal Rayon İcra Hakimiyyətindən Ümid Əsgərov yenidən gələrək, icazə üçün yenidən məndən 6 min manat rüşvət istədi. Uşağımın xəstə olduğunu və bu pulu verəcək imkanda olmadığımı dedim. Üz tutdum Yasamal rayon icra başçısı Əziz Əzizovun qəbuluna. Əvvəlcə evin tikilməsi üçün mənə icazə verdi. Keçən il noyabrın 17-də qurumun nümayəndələri gəldi, başladılar xırda söküntü işləri aparmağa. Mənə də dedilər ki, icazə aldığınızı bilirik, sadəcə, bunu etməliydik. Noyabrın 19-u yenidən Əziz Əzizovun qəbuluna getdim. Ona bildirdim ki, sizin nümayəndəniz artırmanı tikməyə mənə imkan vermir. Belə vəziyyətdə də yağış yağanda evimi su basır. O isə cavabında "tikintiyə mən icazə vermirəm" dedi. Evə gələndən 3 dəqiqə sonra qurumdan İlkin adlı şəxslə birgə bir neçə nəfər nümayəndə gəlib, xəstə uşağımın və mənim



gözümün önündə evimi sökməyə başladılar. Onlara nə qədər etiraz etsəm də, qulaq asmadılar, məni itələdilər. Axırda məcbur qalıb yerdən kərpic götürüb başımı yararaq özümə qəsd etmək istədim. Zərbədən huşumu itirdim. Ayılanda gördüm ki, evi sökənlər alətlərini atıb qaçıblar. Həmin hadisədən sonra oğlumun ürək nahiyəsində xal kimi ləkə yaranıb. Bu azmış kimi, artırmanı sökərkən evimin tavanını da zədələyiblər. Hər yağış yağanda xəstə oğlumla birgə oturmağa, yatmağa yer axtarırıq.

Çarəsiz durumda qalmışıq. Bütün müvafiq qurumlara söküntü ilə bağlı müraciət etsək də, cavabsız qalıb.

Çıxış yolu olaraq, tək ümidim prezidentimizədir. Qoy Əziz Əzizovun və onun rüşvətxor adamlarının mənim xəstə uşağımla başıma gətirdikləri bu bəladan xəbərdar olsun. Bəlkə ondan sonra mən bu çətin vəziyyətdən xilas ola bildim".

Şikayətçinin iddialarına cavab vermək üçün Yasamal Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi Ümid Əsgərovla əlaqə saxlamağa çalışsaq da, zəngimizə cavab verilmədi. Onun hazırda məzuniyyətdə olduğu bildirilir.

❑ **Elçin ƏKBƏROV,**
**"Yeni Müsavat"**
**fotolar müəllifindir**



| | |
|---|---|
| Kapital Bank | |
| Valyuta: | AZN |
| Benefisiarın Bankı: | Kapital Bank ASC Qara Qarayev filialı |
| Filialın Kodu: | 200145 |
| VÖEN: | 9900003611 |
| SWIFT kod: | AIIBAZ2X |
| Mühbir hesab | AZ37NABZ01350100000000001944 |
| Benefisiarın adı: | ŞAHİD SÜLEYMANOV ALI OĞLU |
| Benefisiarin hesabı: | AZ70AIIB41010019448952704114 |
| VÖEN: | |

# 1-ci qrup əlil kömək istəyir



**"Hazırda yerimə qabiliyyətimi itirmişəm, əlil arabası ilə hərəkət edirəm. Bel onurğa yırtığının əməliyyatına ehtiyacım var". Bu sözləri "Yeni Müsavat"ın redaksiyasına əlil arabasında gələn 1-ci qrup əlil Süleymanov Şahid Alı oğlu bildirib.**

Onun sözlərinə görə, paytaxtın Nizami rayonu, Qara Qarayev prospekti 24, ev 15 ünvanında yaşayır. Ş.Süleymanov kiçik yaşlarında anasını itirib, atası tərəfindən ona heç bir dəstək yoxdur.

"Aldığım təqaüdlə birtəhər keçinirəm. Bir hissəsi dərmanlara gedir, qalanı heç yeməyimə çatmır.

Birinci əməliyyatımı Azərbaycan Tibb Universitetinin Tədris Cərahiyyə Klinikasında ediblər. Amma faydasını görmədim.

Mənim yenidən əməliyyat olunmağıma ehtiyac var. Azərbaycan xalqından xahiş edirəm ki, yardım edəsiniz. Mənim əməliyyatıma 4 min manat lazımdır. Mənim bu qədər pulum haradandır? Xalqıma güvənirəm, xahiş edirəm ki, imkanlı şəxslər köməklik göstərsinlər. Günbəgün vəziyyətim ağırlaşır..."

Ş.Süleymanov bank hesabı nömrəsini təqdim edib.

❑ **EMİL**

# Qanunsuz ov edən qohumlar saxlanıldı

**Göygöl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən qanunsuz ov edən qohumlar saxlanılıb.**

ARB TV xəbər verir ki, Göygölün Tülallar kəndi ərazisində qanunsuz ov edən 5 nəfərdən ibarət dəstə saxlanılıb. Həmin kəndin sakinləri olan qohumlar heç bir sənədi olmayan silahlarla iki ədəd dovşan ovlayıblar.

Saxlanılan şəxslərin dediklərinə görə, kəndə tez-tez hücum edən yırtıcılara qarşı tədbir görmək üçün ov silahlarına əl atıblar.

Saxlanılan şəxslərdən müvafiq sənədi olmayan 2 ədəd "TOZ" və 3 ədəd "İJ" markalı ov tüfəngləri və ümumi sayı 84 ədəd olan patron, habelə ovladıqları 2 ədəd dovşan götürülüb.

Faktla bağlı Göygöl Rayon Polis Şöbəsində araşdırmalar aparılır.

# Bu il 6 mindən çox şəhid ailəsi "qan pulu" alacaq

## Ötən il isə şəhid hərbi qulluqçuların yaxınlarına 34 milyon manat ödənilib

**Ötən il prezidentin imzaladığı fərmanla Azərbaycanda şəhid olmuş hərbi qulluqçuların ailələrinə sığorta haqqının ödənilməsinə başlanıb. Uzun illərdən bəri gözlənilən bu proses xeyli səs-küylü hadisələrlə müşayiət olunmaqdadır. Xeyli sayda şəhid yaxını sığorta haqqını almaq istəsə də, dövlət qurumları onların bu hüquqdan əvvəllər istifadə etdiklərini əsas gətirməklə bu istəyin reallaşmasına qarşı çıxırlar. İndiyədək də şəhid yaxınlarının etirazları davam edir. Onların əksəriyyəti müvafiq qurumların təqdim etdiyi sənədlərin saxta olduğunu iddia edərək, sığorta almaq haqlarının qəsdən pozulduğunu bildirirlər.**




Qeyd edək ki, ötən ilin dövlət büdcəsindən şəhid hərbi qulluqçuların ailələrinə sığorta haqqının ödənməsi üçün 58 milyon manat ayrılmışdı. Bu il isə həmin məqsədlə daha 50 milyon manatın sərf olunması nəzərdə tutulur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, ötən ilin sonunadək 3100 şəhid hərbi qulluqçunun 4200 vərəsəsinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilib: **"Məmur təması olmadan onlara 34 milyon manat vəsaitin ödənilməsi təmin edilib".**

Nazirlikdən bildirildiyinə görə, ümumilikdə siyahı üzrə 9531 şəhid hərbi qulluqçunun vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ vardır ki, onlardan qalan hissəsinin, yəni 6,4 min nəfərinin vərəsələrinin də bu il ərzində birdəfəlik ödəmə ilə təminatı həyata keçiriləcək: **"Birdəfəlik ödəmənin verilməsindən ötrü ümumilikdə dövlət büdcəsindən 108 milyon manat ayrılıb. Onu da bildirək ki, fərmanın icrası ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində hazırlanaraq təsdiq edilmiş qaydalara görə, ödənişi həyata keçirən orqanla bu ödəməni alan vətəndaş arasında təmas baş vermir. Yəni tam şəffaf ödəniş mexanizmi yaradılıb. Vəsait vərəsələrin bank hesablarına köçürülərkən bu barədə onlara sms vasitəsilə məlumat göndərilir".**

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# Bakıya qar proqnozu verildi



**"Yanvarın 16-dan 17-nə keçən gecədən başlayaraq 18-i gündüzədək ölkə ərazisində hava şəraitinin kəskin dəyişəcəyi gözlənilir".**

"Report" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva deyib.

Onun sözlərinə görə, havanın kəskin dəyişməsinə səbəb ölkə ərazisinə aralıq tsiklonunun yaxınlaşmasıdır: "Yanvarın 17-dən ilk olaraq Naxçıvan Muxtar Respublikasından, Dağlıq Qarabağ, Qazax, Gəncə bölgəsində bu proses özünü göstərəcək. Şiddətli şimal-qərb küləyinin əsəcəyi, küləyin maksimal sürətinin 28-33 m/s, arabir 35-38 m/s-ə çatacağı ehtimal olunur".

**U.Tağıyeva əlavə edib ki, ötən günlə müqayisədə havanın temperaturu kəskin 10 dərəcə aşağı enəcək:** "Respublikanın rayonlarında yağıntıların olacağı, sulu qar, qar yağacağı, bəzi yerlərdə intensiv və güclü olacağı gözlənilir. Yanvarın 17-dən 18-nə keçən gecə rayonlarda yolların buz bağlama ehtimalı var. Eyni zamanda yanvarın 17-də Bakıda və Abşeron yarımadasında yağıntının sulu qara, qara keçəcəyi gözlənilir və havanın temperaturu 0-2 dərəcə isti olacaq".

O əlavə edib ki, dənizdə dalğanın hündürlüyü 6-8 metrə qədər qalxacaq.

**Ötən ilin iyulunda marşrut avtobusları ilə yanaşı, metroda da gediş haqları artırıldı. Sərnişinlər bu artımdan sonra Bakı Metropoliteninin fəaliyyətində keyfiyyət dəyişiklikləri gözləsələr də, ciddi bir xidmət dəyişikliyi baş vermədi. Bununla yanaşı, tez-tez köhnə qatarlarda nasazlıqların yaranması metroda həyəcanlı anların yaşanmasına da səbəb olur. Ən son yanvar ayının 14-də Bakı Metropoliteninin qatarı reysdə olarkən yararsız hala düşüb. Qatar "Sahil" metro stansiyasından "İçərişəhərə"ə doğru hərəkət edərkən, tüstülənməyə başlayıb. Sürücü tunelin girişində qatarın əyləcini bassa da, vaqonların bir hissəsi tunelə daxil olub. Sözügedən qurum məlumatı təsdiqləyib və bildirilib ki, qatarın maşinist heyəti qatarda nasazlıq yarandığından sərnişinləri evakuasiya etmək qərarına gəliblər. Metropoliten bütün qatarların istismara yararlı olduğunu bildirsə də, ictimaiyyət köhnə qatarların artıq tez-tez problem yaşatdığını hesab edir.**



# Metroda təzə qiymət, köhnə vəziyyət...

## Bahalaşma xidmətin keyfiyyətinə niyə təsir etmədi?






Sərnişinlər Bakı Metropolitenində köhnə qatarların yenisi ilə əvəz ediləcəyi günü gözləyirlər.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən "Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov bildirdi ki, bu il istismar müddətini başa vuran qatarların yerinə yeni nəsil qatarların xəttə salınması nəzərdə tutulur:** "Qayda belədir ki, qatarlar istismar müddətini başa vurduqca dəyişdirilməlidir. Bu ilin planında da yeni qatarların alınması var. İstismar müddəti başa vurulduqca yeni qatarlar alınır və onlar da tam yeni nəsil qatarlardır. 2018-ci ildə gətirilmiş qatarlar 3 il öncə gətirilən qatarlardan da müəyyən cəhətləri ilə fərqlənir. Bu, mütləq həyata keçiriləcək, vaqon təsərrüfatı yenilənəcək".

**Hazırda Bakı Metropolitenində bir neçə istiqamətdə yenilənmə işlərinin aparıldığını deyən B.Məmmədov bəzi stansiyalarda təmir işlərinin gedişatı ilə bağlı da məlumat verdi:** ""Şah İsmayıl Xətai" metro stansiyasında eskalatoru yeniləyirik. 50 illik istismar müddətindən sonra eskalatorlar ömrünü başa vurur, o baxımdan dəyişdirilir. Stansiyanın bütün infrastrukturunun yenilənməsi də nəzərdə tutulur. Hazırda "Bakmil" stansiyasında son tamamlanma işləri gedir. Bundan əlavə, ən vacib məqam Bakı Metropoliteni xətlərində hərəkətin tənzimlənməsində dünyada aparıcı olan yeni texnologiyalar sinfinə aid yeni sistemlərin tətbiqinə, xüsusən də qatarların idarəedilməsinin CBTC-yə, yeni radiokanal idarəetməsinə keçid nəzərdə tutulur. Bu isə birdəfəlik alınmır, mərhələli prosesdir. Bunun ilk nümunəsi kimi hazırda bizim Nərimanov Elektrik Deposunda bu işlərin həlledici mərhələsinə doğru addımlar atılır. Orada idarəetmə sistemləri və depo yollarında müvafiq işarə vermə sistemlərinin qurulması istiqamətində işlər tam sürətilə davam edir. Ən vacib olan hərəkətin təşkilidir".

**Metropoliten sözçüsü metrodakı ventilyasiya sistemlərində də bəzi yeniliklər edildiyini bildirdi:** "Təbii ki, digər infrastruktur yenilikləri də var. Ötən il havalandırma sistemi ilə bağlı bir yenilik elədik və artıq əvvəllər olduğu kimi ildə iki dəfə deyil, hər mövsümə uyğun olaraq ventilyasiya sistemi tətbiq edirik. Onun nəticələri monitorinq olunur, təhlil və, analizlər aparılır. O sistemin davamlı inkişafı bu il olacaq. Bundan əlavə ventilyatorların dəyişdirilməsi də bu il üçün nəzərdə tutulub. Vaxtaşırı olaraq bu işlər həyata keçirildikcə, informasiyalar ictimaiyyətə açıqlanacaq. Tək bu da deyil, infrastrukturun yenilənməsi, yeni texnologiyaların tətbiqi, buna uyğun olaraq kadrların hazırlanması prosesində yeniliklərin tətbiqi - hamısı gündəmdə olan mövzulardır. Bunların böyük bir qismini sərnişin görmür. Ancaq bu işlər hərəkətin təşkilinə öz müsbət təsirlərini göstərir, gələcəkdə daha çox hiss olunacaq".

**B.Məmmədov pik saatlarda metroda sıxlığın aradan qaldırılması üçün çox ciddi infrastruktur dəyişikliklərinə ehtiyac olduğunu bildirdi:** "Bakı Metropoliteninin sərnişin kütləsinin ən çox olduğu yaşıl və qırmızı xətlər Həzi Aslanov stansiyasından "28 May" stansiyasına qədər eyni xətdə kəsişir. Bunun həlli üçün mütləq bu xətlər bir-birindən ayrılmalıdır. Bu iş də mərhələli şəkildə addımların atılmasını tələb edir. Bütün bunlar metropolitenin perspektiv inkişaf sxemində nəzərə alınır. Gələcəkdə bu istiqamətdə işlər aparılacaq. Yeganə həlli yolu budur. Dünyada heç bir metroda iki xətt bir müstəvidə kəsişmir. Bizdə isə "Həzi Aslanov"dan həm "İçərişəhər"ə, həm də "Dərnəgülə" gedən istiqamət bir xətdə birləşir, "28 May"da kəsişirlər. Əsas problem yaradan məqam budur".

**Bakı Metropoliteninin hansı vəsaitlər hesabına bu işləri həyata keçirməsinə gəlincə, qurum sözçüsü bildirdi ki, sərnişinlərdən gələn vəsait yalnız kommunal xərclərə və vergi və sığorta ödənişlərinə sərf olunur:** "O məlumat hələ ki, məndə yoxdur. Ancaq dövlət büdcəsində bu nəzərə alınıb. Bu, şəffaf məlumatdır və biz onu hər il göstəririk. Metropolitendə hazırda "Bakı kart" sistemi tətbiq olunur. Həmin sistemlə sərnişinlərdən yığılan vəsait və dövlətdən ayrılan vəsaitlə işləyirik. Ancaq bildiyiniz kimi, sərnişinlərdən gələn vəsait Bakı Metropoliteninin bütün xərclərini ödəməsi üçün yetmir. Biz sərnişinin gediş haqqını elan edəndə də , orada nəzərə alınmayan cəhətləri xüsusi qeyd edirik. Qatarların alınması , yenilənməsi, stansiyaların tikilməsi, əsaslı təmiri, yenidən qurulması kimi işlərin heç biri sərnişinlərin gediş haqlarından gələn vəsaitlə həyata keçirilmir. Sadəcə, kommunal xərclər, vergilər, sığorta və digər xərclər nəzərə alınmaqla biz o rəqəmi elan edirik. Qalan məsələləri isə dövlət öz üzərinə götürüb. Onlar dövlətin vəsaiti ilə icra olunur".

**B. Məmmədov onu da vurğuladı ki, sərnişinlərin metrodan istifadəsinin maya dəyəri qanunvericilikdəki dəyişikliklərdən sonra yenidən hesablanır:** "Hazırda bir sərnişinin metrodan istifadəsinin maya dəyəri ilə bağlı rəqəm son 6 ayın yekunlarına uyğun olaraq hesablanır, hələ ki o rəqəm müəyyən edilməyib. Maya dəyəri ilə bağlı sonuncu rəqəm isə qiymət artımından əvvəl 47 qəpik idi. Növbəti dövrdə bir gedişin maya dəyərinin nə qədər olacağı ilə bağlı dəqiq fikir demək çətindir. Çünki əvvəlki dövrdə qanunvericilik də fərqli idi, indi vergi və sair məsələlərlə bağlı bəzi dəyişikliklər aparılıb. Bununla bağlı maliyyəçilər hesablama aparırlar. Biz tam şəffaf şəkildə maliyyə hesabatını da dərc etdiririk".

**Bakı Metropoliteninin özəlləşdirilməsi ilə bağlı təkliflərə münasibət bildirən Bəxtiyar Məmmədov yeni modelə keçidin özünü doğrultmaması ehtimalını da istisna etmədi:** "Bu barədə fikir yürütmək üçün dünya təcrübəsini öyrənmək lazımdır. Dünyada tamamilə fərqli yanaşmalar var. Ən azı texnoloji baxımdan biz Avropada və dünyada tətbiq olunan ən mütərəqqi texnologiyalara doğru gedirik. Ancaq müqayisə aparmaq mənim üçün çətindir. Bu keçid necə olmalıdır, hansı model olmalıdır? Dünyada da çox fərqli modellər var. Onu da vurğulayım ki, dünyada da özünü doğruldan metropolitenlər çox azdır. Hər şey o modeldən asılıdır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

## Bakının bəzi küçələrində avtobus dayanacaqlarının yeri dəyişdirildi

**Paytaxtın yol kəsişmələrində və ya kəsişmələrə yaxın ərazilərdə quraşdırılmış avtobus dayanacaq pavilyonlarının yerlərinin dəyişdirilməsi işləri davam etdirilir.**




Bakı Nəqliyyat Agentliyindən verilən məlumata görə, bu çərçivədə M.Qardaşları küçəsi ilə A.Bakıxanov küçələrinin kəsişməsində yerləşən dayanacaq pavilyonu bir qədər geridə təşkil edilib. Nəticədə yolun hərəkəti buraxmaq qabiliyyəti artıb. Məlumat üçün bildirək ki, svetoforla nizamlanan M.Qardaşları küçəsi ilə A.Bakıxanov küçələrinin kəsişməsində daimi sağa yanan əlavə bölmə olmasına baxmayaraq həmin ərazidə avtobus dayanacaq məntəqəsinin mövcud olması səbəbindən yolda sıxlıq müşahidə olunurdu.

Həmçinin Cavadxan küçəsində (Zərifə Əliyeva adına Göz Klinikasının qarşısında) mövcud avtobus dayanacaq məntəqəsi svetoforla nizamlanan yol kəsişməsində təşkil edildiyindən həmin ərazidə avtobusların dayanması sərnişinlərin təhlükəsizliyini təmin etmədiyindən və hərəkət iştirakçılarına maneə yaratdığından, avtobus dayanacaq məntəqəsi kəsişmədən irəlidə təşkil edilib.

YENİ MÜSAVAT
N 11 (7181) 16 yanvar 2019

**Polşanın Qdanski şəhərinin bələdiyyə sədri bıçaqlanıb. Hadisə Qdanski şəhərində keçirilən ianə festivalı zamanı baş verib. Bələdiyyə sədri Pavel Adamovicz səhnəyə çıxarkən bıçaqlanıb. Onu təcili xəstəxanaya çatdırsalar da həyatını xilas etmək mümkün olmayıb.**





# Dünya siyasətçilərinin cangüdən seçimi - bilinməyən detallar

## Polşada bələdiyyə sədrini cangüdəni olmadığı üçün öldürdülər; bəs digərləri?





53 yaşlı Adamoviczi öldürən şəxs isə daha öncə məhkumluq həyatı yaşamış, 27 yaşlı bir gənc olub. Hücumçu bağıraraq, Adamoviczin keçmiş partiyasının hökumətdə olduğu dönəmdə haqsız yerə həbsə atıldığını söyləyib. Hadisə yerindən çəkilən videogörüntülərdə isə görünür ki, bir neçə gün öncə həbsdən çıxan hücumçu "Adamovicz öldü" deyə qışqırır və həbsxanada işgəncə gördüyünü deyir. Polşa mediası hücumçunun səhnəyə qəzetçi kartı ilə girdiyini açıqlayıb.

"Yeni Müsavat" bu xəbərdən çıxış edərək, siyasətçilərin, dövlətləri, şəhərləri idarə edən şəxslərin mühafizə xidməti ilə bağlı bəzi detalları araşdırıb. Şübhəsiz, sözügedən olayda bələdiyyə sədrinin cangüdəni olsaydı, bu hadisə baş tutmayacaqdı. İndi dünya siyasətçilərinin əksəriyyəti cangüdən heyəti olmadan hərəkət etmir. Və gündən-günə bu sahə ilə bağlı artan təhlükəsizlik tədbirləri, hücum taktikaları bizə mövzuya yenidən baxmağı mütləq etdi.

Öncə prezident mühafizəçiləri haqda. Ümumiyyətlə, bu sahədə çalışmaq risk tələb edir. Məsələn, 1999-cu ildə təkcə Amerika prezidentinin məxfi xidmətində 31 əməkdaş qətlə yetirilib. 2003-cü ildə isə məxfi xidmət ölən və yaralananlarla bərabər 34 xəfiyyə itirib. Təbii ki, bu itkilərin detalları açıqlanmır.

**Amerikanın keçmiş prezidenti Reyqanın şəxsi mühafizəsində çalışmış Con Barletta deyir ki, 21-ci əsr cangüdənlərinin işi çox çətindir. Belə ki, indi texnikanın imkanları kosmik sürətlə inkişaf etdiyindən zərbənin haradan gələcəyini proqnozlaşdırmaq da mümkün deyil:** "İndi təkcə tapança, avtomat və ya snayperdən gələn təhlükə ilə iş bitmir. Təyyarə, raketdən açılacaq zərbə, jurnalist, narazı vətəndaş qiyafəsində prezidentə yaxınlaşa biləcək şikayətçi... Bunların hamısını düşünəndə cangüdən dinc həyatı ancaq yuxusunda görə bilər".

Yumurta, mayonez, pomidor hücumları cangüdənlərin qorxulu röyası olub. İlk baxışda gülməli görünə biləcək bu "silahlar" nadir halda da olsa xarici səfərə gedən prezidentlərin başına bəla açır. Rusiya mətbuatına inansaq, Putin bir, Medvedyev isə iki dəfə belə hücuma məruz qalıb. Amma cangüdənlər nə özlərini, nə də müdafiə etdikləri şəxsləri bu "silahdan" qoruya bilmir. Son vaxtlar bu sayaq hücumları zərərsizləşdirmək, məsələn, onların ləkəsini saxlamayacaq geyimlər tapmaq prezident mühafizələrində ən aktual mövzudur. Artıq bununla bağlı lazımi addımlar da atılır.

### Siyasətçilər cangüdən sözünə baxır, oliqarx isə yox

Yaltada bir neçə il öncə keçirilən cangüdənlərin 4-cü çempionatında isə onlar mediaya birinci şəxslər və oliqarxların mühafizəsindəki fərqlərdən danışıb. Onlar bildiriblər ki, siyasətçilərin, ölkə rəhbərlərinin cangüdənliyini etmək oliqarxlarla işləməkdən daha asandır. Çünki siyasətçilər oliqarxlardan daha intizamlıdırlar və məsləhətə də qulaq asırlar. Bu mənada biznesmenlərin də maraqlı iş ortağı olduğu deyilir. Onlar da öz çeviklikləri ilə fərqləndikləri üçün cangüdənlərin sevimlisidir.

Oliqarxlar qeyri-təvazökarlıqları və tez-tez əhval dəyişkənlikləri ilə fərqlənsələr də, siyasətçilərdən fərqli olaraq pul məsələsində daha səxavətlidilər.

Cangüdənlərin 12 saatlıq iş rejimi olmalıdır. Əks halda, onlar ayıq-sayıqlıqlarını saxlaya bilmək üçün psixoloji güc toplaya bilmirlər. Birinci şəxslərin səfəri ciddi hazırlıq tələb edir. Öncə səfər olunacaq məkanda axtarış əməliyyatı aparılır, sonra həmin bölgə analiz edilir, ardınca səfər edəcək heyət ora yola düşür.

### Cangüdən bir müddət sonra sirdaşa, yaxın dosta çevrilir

Amma ildən-ilə dəyişən hücum taktikalarına qarşı məmurların cangüdənləri də xüsusilə qorunurlar. Məsələn, Türkiyənin müdafiə naziri Fikri İşıq cangüdənlərini yerli istehsal olan MPT-55 markalı avtomat silahlarla təmin edib. Müdafiə nazirinin təlimatı ilə yaxınlarda kütləvi istehsala başlanacaq yeni silahın bir çox üstünlükləri var. Son model yerli silahla təmin edilən cangüdənlər bundan sonra Fikri İşıqın təhlükəsizliyini daha etibarlı qoruyacaq.

Xatırladaq ki, NATO standartlarına uyğun olaraq istehsal olunan MPT-55-lər 3.2 kq ağırlığındadır. Dəqiqədə 850 güllə atır, 400 metr məsafəni dəqiq vurur. Yeni silaha hər cür optik cihaz taxmaq mümkündür. Bundan başqa, MPT-55 avtomatik silah sərt soyuq və isti havada, eyni zamanda, qum, su, palçığın altında kilidlənmir, dəqiq hədəfləri vura bilir.

Bəzi prezidentlər, məmurlar isə cangüdənlərindən bir metr də aralı gəzmirlər. Məsələn, Qazaxıstan prezidenti Nazarbayev bir neçə il bundan öncə dənizə də cangüdənləri ilə birgə girib və 75 dəqiqə suda üzüb. Qaldığı hotelin sahilində yürüş edən prezidentin cangüdən ordusu ilə gəzməsi diqqətdən yayınmayıb. Bodruma bu yaxınlarda xüsusi yaxta ilə yollanan 75 yaşlı Nazarbayev onu tanıyanlarla salamlaşaraq fotolar çəkilməsinə icazə verib.

Amerika prezidenti Donald Trampın da cangüdənləri ilə yaxşı münasibətləri var. Məsələn, o, FBR rəhbəri Ceyms Komini vəzifəsindən uzaqlaşdırmaq qərarı verəndə, bunu ona cangüdəni Kit Şiller vasitəsilə göndərdiyi məktubla bildirib. Çünki Şiller Trampla uzun illər işgüzar münasibətləri nəticəsində onun ən etibar etdiyi şəxslərdən birinə çevrilib. Cangüdənlikdən məsləhətçisinə qədər yol gəlib.

Trampın keçmiş məsləhətçisi Kori Levandovski deyib ki, prezident Kitə qeyri-adi dərəcədə etibar edir. "Əgər prezident ona nəyisə etməyi deyirsə, o, bunu mütləq edəcək".

Şiller Trampın cangüdənindən onun məsləhətçisinə çevrilib və sonradan da ona hüquq-mühafizə orqanları ilə bağlı məsələdə tövsiyələr verir. O, FBR-in Hillari Klintonla bağlı məsələdəki araşdırmasında sərt mövqe tutub və Trampa da təsir göstərib.

Dünya mediası yazır ki, Şiller Trampın təhlükəsizlik xidmətinə təsadüfən düşüb. Belə ki, Trampın ikinci arvadı Marli Malps çantasının oğurlanmasından sonra Nyu-York polisinə müraciət edib. Həmin vaxt Şiller orada detektiv olub. Malpsda onunla bağlı yüksək təəssürat yaranıb və o, daha sonra biznesmen Trampla tanış olub.

Şiller hazırda Trampın cangüdəni vəzifəsini icra etsə də, ingilis dilində onun vəzifəsinin adı "bodyguard" yox, "bodyman" olub. Bu isə öz növbəsində "möhkəmləndirici" mənasını daşıyır.

Bu vəzifə prezident Corc Vaşinqtonun zamanında yaranıb. Həmin vaxt onun şəxsi köməkçisi və cangüdəni Tobias Lir eyni zamanda "bodyman" olub. Barak Obamanın vaxtında isə bu vəzifəni amerikalı futbolçu Reci Lav həyata keçirib. O, bir qayda olaraq prezidenti müşayiət edir, onun telefon zənglərinə cavab verir, prezidentin qalstukunu və sevimli qələmini əlində hazır saxlayır, onu çoxsaylı səfərlərində müşayiət edirdi.

Eks-prezident Obamanı tanıyan şəxslərdən biri danışıb ki, onunla Lav arasında münasibət dostcasına olub. Boş vaxtlarda prezident onunla basketbol oynayıb. Yazılmamış qaydalara uyğun olaraq, onlar heç vaxt siyasətdən danışmazdılar. Söhbətlərinin mövzusu ancaq musiqi, idman olub. Amma nəzərə almaq lazımdır ki, Lavın politoloq dərəcəsi olub, o, bu mövzulardan baş çıxarıb.

Amerikanın sabiq prezidenti Abrram Linkolnun və onun "bodyman"in hekayəsi də maraqlıdır. Sonuncu Virciniyadan olan vəkil Vord Hill Lamon olub. Belə ki, o, öncə prezidentin hüquqşünası olub, daha sonra uzun müddət onun cangüdəni vəzifəsini icra edib. Xaricdə diplomat vəzifəsi arzusunda olan Lamon eyni zamanda prezidentlə çiyin-çiyinə olub, onun silahlı köməkçisi vəzifəsini daşıyıb. Onların münasibətləri də yetərincə dostcasına olub.

Linkolna qarşı hədsiz qayğısına baxmayaraq, o, prezidenti qoruya bilməyib. O, 1865-ci ildə, prezident sui-qəsdə uğrayanda onun yanında olmayıb. Həmin vaxt Lamon prezidentin şəxsi tapşırığı ilə göndərildiyi Virciniyada olub.

Daha bir ilginc hadisə isə Bill Klintonla onun cangüdəni arasında yaşanıb. Belə ki, Arkanzasın qubernatoru olduğu zaman cangüdənləri ilə dostluq münasibətlərində olub. Jurnalistlərin daha sonradan aydınlaşdırmasına görə, Bill Klinton arvadı evdə olmayanda cangüdənləri vasitəsilə evinə qadınlar dəvət edirmiş.

Amma cangüdənlər zaman-zaman özləri də romantik münasibətlərin tərkib hissəsinə çevrilirlər. Belə hekayələrdən biri prezident Franklin Delano Ruzveltin həyat yoldaşı Eleonorla onun cangüdəni Erli Miller arasında baş verib. Keçmiş hərbçi Miller boksla məşğul olur, eyni zamanda sirkdə akrobatlıq edirdi. Miller birinci lediyə çox bağlı olub. Onu ata mindirir, tennis oynayırdı. Amma indiyə qədər də mübahisə olunur ki, cangüdəni ilə Eleonora arasında romantik münasibətlər olub, yoxsa onlar, sadəcə, dost olublar.

"O, bizim ailənin bir parçasına çevrilmişdi və yoldaşının, bizim ona verə bilmədiyimiz sevgini ona verirdi. O, Eleonorun özünü əsl qadın kimi hiss etməsinə yardımçı olmuşdu" - bu barədə Eleonora Ruzveltin oğlu öz xatirələrində yazırdı.

### Azərbaycan müxalifətinin nümayəndələri: "Cangüdənə ehtiyacımız yoxdur"

Keçək Azərbaycana. İndi bir çox məmurlar, nazirlər cangüdənlə gəzirlər. Onlar hətta xarici səfərlərində də cangüdənlərini özləri ilə aparırlar. Ötən ilin yayında sui-qəsdə məruz qalmış Gəncə icra hakimiyyətinin başçısı Elmar Vəliyevin də sağ qalmasındakı faktorlardan biri cangüdəninin onu qoruması idi.

Amma müxalifət nümayəndələri cangüdənlərə ehtiyac duymurlar.

**Azərbaycan Xalq Partiyasının rəhbəri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dünyanın müxtəlif ölkələrində vəzifəli şəxslərə qarşı sui-qəsd törədilib. Onun sözlərinə görə, bunların arasında cangüdənlə gəzənlər də olub, cangüdənsiz gəzənlər də:** "Adamı öldürəndə onun yanında cangüdən olub-olmamasına baxmırlar. Mən cangüdənsiz gəzirəm və hər hansı təhlükə hiss etmirəm".

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında dedi ki, ümumiyyətlə, cangüdən insanları planlaşdırılmış cinayətlərdən azad etmir:** "Tarixdə bir çox belə hekayələr olub ki, prezidentlər, baş nazirlər terrora məruz qalıblar. Halbuki onların da yanında çox güclü cangüdənləri olub. Cangüdən insanın canını yüz faiz qorumur. O, sadəcə olaraq, bir çox hallarda təsadüfi şeylərdən insanı qurtara bilər".

S.Cəlaloğlu hazırda cangüdəni olmadığını və onun yoxluğunu hiss etmədiyini dedi.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

*N 11 (7181) 16 yanvar 2019*




## Köklük xərçəng riskini artırır

**Artıq çəki ciddi şəkildə xərçəng xəstəliyi riskini artırır. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalar üzrə mərkəzlərindən biri olan Beynəlxalq Xərçəng Araşdırmalar Mərkəzinın hesabatında bildirilir. Hesabata görə, aparılan araşdırmalar zamanı məlum olub ki, dünya üzrə bu xəstəlik 3.6 faiz piylənmə səbəbindən əmələ gəlir. Araşdırmaya görə, artıq çəkili qadınlarda xərçəng xəstəliyi kişilərlə müqayisədə 2.5 dəfə artıq müşahidə edilir.**

Alim Melina Arnold artıq çəkinin müxtəlif mexanizmlərinin xərçəngə səbəb olduğunu deyir: "Məsələn, döş xərçəngi. Biz bilirik ki, buna səbəb əsasən piy toxumalarının ifraz etdiyi hormonlardır. Həmin hormonlar xərçəng əmələ gətirir".

Arnoldun dediyinə görə, araşdırmalar zamanı 90 000-ə yaxın kişidə bağırsaq və böyrək xərçəngi aşkar edilib. Qida borusunda və udlaqda xərçəng isə ən geniş yayılan xəstəlikdir və əsasən ağır çəkili kişilərdə müşahidə olunur: "Buna səbəb əsasən mədə turşuluğunun artıq olmasıdır və belə hallar piylənmə olan insanlarda qeydə alınır".

Alimlər artıq çəkinin problemə çevrildiyini və bu problemin gələcək 10 illə 20 il arasında xərçəngin sayını artıracağını proqnozlaşdırır.

# Metroda 10 min dollar itirdi, geri qaytardılar

**Qazaxıstandan olan qadının Nyu-York metrosunda itirdiyi 10 min dolları geri qaytarıblar. Bu barədə lenta.ru saytı xəbər verib. 2018-ci ilin sonunda Nyu-York sakini Riçard Taverna metroda içində 10 min dollar olan "Channel" çantası tapıb və onu polisə aparıb. Onun sözlərinə görə, bu, düzgün hərəkət olub: "Mən tamamilə əminəm ki, böyük əksəriyyət məhz belə edərdi".**



Bir neçə həftə sonra Tavernə polisdən zəng edib çantanın sahibəsi ilə görüşməyi təklif etdilər. Çantanın sahibi Qazaxıstan vətəndaşı olan Aya Tulemaqanbetova idi. O, Nyu-Yorkda Alfa Consulting Groupa rəhbərlik edirdi. Qadın izah edib ki, pullar uşaqlara hədiyyə üçün nəzərdə tutulub. O, qeyd edib ki, bu qədər nağd pulu əldə aparmasının səbəbi Qazaxıstanda bank kartı ilə alış-veriş etməyin mümkün olmamasıdır.

Təşəkkür əlaməti olaraq Tulemaqanbetov Tavernə "Qızıl insan" fiquru hədiyyə edib. Onun sözlərinə görə, bu, Qazaxıstanda insana uğur gətirdiyini göstərir.

# Tikişi söküldü, daxili orqanları əlində qaldı



**Böyük Britaniya sakini doğuşdan sonra başına gələn bir hadisəni bir saytda danışıb. Sökülən tikişlərinə görə o, daxili orqanlarını əlləri ilə saxlamaq zorunda qalıb. Bu barədə "New York Post" nəşri xəbər verib.**

Qeysəriyyə əməliyyatından beş gün sonra Mel Bremner duş qəbul edib. O, şampunu götürmək üçün əyiləndə qarnındakı tikiş partlayıb və daxili orqanları yırtıq yerindən tökülməyə başlayıb. O, orqanlarını əlində saxlaya bilib və ərini dərhal çağırıb. Sonuncu qadının özünü divana çatdırmasına kömək edib və təcili yardım maşınını çağırıb.

**Qadın təcili tibbi yardım maşını gələnə qədər gözləyərkən çəkdirdiyi fotoları sosial şəbəkə vasitəsilə paylaşıb:** "Mən bu şəklə baxanda xatırlayıram ki, sözün hərfi mənasında mədəmi və digər daxili orqanlarımı əlimdə saxlayaraq necə həkimi gözləyirdim. Onlar tərpənirdilər və mən vahimə içində gözləyirdim".

Bremneri xəstəxanaya aparıb, yenidən əməliyyatdan keçiriblər. İki gün sonra onu xəstəxanadan evə yazıblar. Mütəxəssislərin sözlərinə görə, tikişin sökülməsinə səbəb sapın həddən artıq nazik olması ola bilər.

2018-ci ildə xəbər yayılmışdı ki, Britaniyanın Skeqness şəhər sakini sinəsindəki silikon implantı özü müstəqil şəkildə çıxarıb.




**QOÇ** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

**BUĞA** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ƏKİZLƏR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**XƏRÇƏNG** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**ŞİR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyin. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**QIZ** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var. Tədbirli olun.

**TƏRƏZİ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şans qazanacaqsınız.

**ƏQRƏB** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**OXATAN** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**OĞLAQ** - Bu təqvimin dini-mistik mahiyyətini anlamağa çalışın. Tanrıya zidd olan addımlardan yayının, müqəddəs ocaqlara gedin. Çalışın ki, dilinizdən yalnız xoş sözlər, dualar çıxsın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**BALIQLAR** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Marketdə həkimlə rastlaşdı, həyatı qurtuldu

**Danielle McCullochun həyatı bal ayı zamanı qarşılaşdığı həkimin müayinəsi sayəsində qurtulub. "Daily Mail"in xəbərinə görə, Kiprdə bal ayı tətili keçirən 26 yaşlı qadının marketdə qarşılaşdığı həkim onun boynunda bir şiş olduğunu görüb və ən yaxın zamanda həkimə göstərməsini söyləyib. İngiltərəyə qayıdan kimi həkimə gedən 2 uşaq anası Daniellenin üçüncü mərhələdəki tiroit xərçəngi olduğu ortaya çıxıb. Həkimə minnətdarlığını bildirən Danielle onun barəsində aşağıdakıları deyib: "Həyatımı xilas etdi. Üstəlik, heç iş başında da deyildi, marketdə alış-veriş edirdi. Boynumdakı yumru daha öncə heç kimin diqqətini çəkməmişdi. Həkimə getməsəydim, bəlkə də indiyə həyatda olmazdım".**

Xərçəngə qalib gələn gənc qadın sistemli olaraq check-uplarını etdirəcəyini deyib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.